QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 133 (5605) 18 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Azərbaycan mətbuatına dövlət qayğısı davamlıdır

*<u>İlham Əliyev:</u> "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır"*

Səh 2



6

**Gəncə hadisələri ilə əlaqədar daha dörd nəfər həbs edilib**



3

**Mübariz Qurbanlı: Gəncə ssenarisini həyata keçirmək istəyənlər tam iflasa uğradılar**



8

**Paşinyan və Brüssel: Moskvanın sərt baxışları altında "müstəqillik tanqosu"**



# Azərbaycan mətbuatına dövlət qayğısı davamlıdır

*İlham Əliyev: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır"*

***Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində layiqli yerini tutub. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış və rəqabət qabiliyyətini yüksəltmişdir.***

Dünyada informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində dövlətimiz tərəfindən ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Elə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının növbəti bir nümunəsidir. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1 (bir) milyon manat ayrılıb.





## "BÜTÖVLÜKDƏ, SÖZ VƏ İNFORMASİYA AZADLIĞI HƏR BİR ÖLKƏ ÜÇÜN, ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN ƏN VACİB OLAN MƏSƏLƏLƏRDƏN BİRİDİR"

Təbii ki, Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir", - deyərək söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulmasının Azərbaycanda çox vacib olan məsələlər olduğunu qeyd edib: "Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

## RESPUBLİKAMIZIN TARİXİ İNKİŞAFINDA ƏLDƏ OLUNMUŞ YÜKSƏK NAİLİYYƏTLƏR MİLLİ MEDİAMIZ QARŞISINDA YENİ VƏZİFƏLƏR QOYUR

Dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb və onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsaitlərinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Göründüyü kimi, Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini tam mənada həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək nailiyyətlər milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2445 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qəbələ rayonunun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Rusiyanın informasiya agentliyi Leyla Əliyevanın kitabı haqqında yazıb




***Rusiyanın "RİA Novosti" agentliyinin "Rossiya dlya vsex" portalı Azərbaycan Tərcümə Mərkəzinin beynəlxalq layihələri haqqında, yaxın günlərdə Londonda dərc edilmiş gənc Azərbaycan şairi Leyla Əliyevanın "The World Dissolves like a Dream" ("Dünya yuxutək əriyir") kitabı haqqında material yerləşdirib.***

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, məqalədə gənclərin Leyla Əliyevanın əsərlərinə marağından və kitabın nəşr edilməsi məqsədindən danışılıb. Məqalə ilə daha yaxından tanış olmaq istəyənlər https://azj.rus4all.ru/exclusive/20180703/728681157.html elektron ünvanına müraciət edə bilər.

# İtaliya mətbuatı Ermənistanın həmvətənlərimiz Dilqəm Əsgərovun və Şahbaz Quliyevin hüquqlarını pozmasından yazır

***Soydaşlarımız Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsinin 4-cü ildönümü ilə əlaqədar İtaliyanın Beynəlxalq İqtisadi və Siyasi Araşdırmalar İnstitutunun (IREPI) prezidenti Domeniko Letizianın müəllifliyi ilə nüfuzlu "L'Opinione" qəzetində "Ermənistan və insan hüquqlarının pozulması" və "Agenzia Nova" xəbər agentliyi tərəfindən "Azərbaycan: vətəndaşlar Əsgərovun və Quliyevin girov götürülməsinin 4-cü ildönümü" adlı məqalələr dərc olunub.***


l'Opinione delle Libertà

OPINIONETV SFOGLIA IL PDF IN EDICOLA OPINIONEVENTI

HOME EDITORIALI POLITICA ECONOMIA ESTERI CULTURA WEB HI-TECH SOCIETÀ

L'11 luglio 2018 ha segnato i quattro anni dalla terribile tragedia avvenuta nel distretto del Kalbajar dell'Azerbaigian, occupato dall'Armenia. Allora, i cittadini dell'Azerbaigian *Dilgam Asgarov* e *Shahbaz Guliyev* furono presi in ostaggio dalle truppe di occupazione dell'Armenia e il cittadino *Hasan Hasanov* fu brutalmente ucciso mentre visitava il cimitero dove erano sepolti i parenti nella regione. Asgarov ha ricevuto la condanna all'ergastolo mentre l'altro cittadino Guliyev è stato condannato a 22 anni di reclusione dal regime illegale e separatista creato dall'Armenia nei territori occupati dell'Azerbaigian.

Il caso è giunto alla ribalta internazionale per la presenza di alcune foto dei due prigionieri civili in cui vengono evidenziate particolari violazioni della dignità umana. Il caso è emblematico poiché l'esercito dell'Armenia ha violato la Convenzione di Ginevra del 1949 che vieta la presa in ostaggio dei civili e la reclusione forzata in condizioni e trattamenti inumani e degradanti. Esploso prepotentemente con il dissolversi dell'Urss, lo scontro vede la regione del Nagorno-Karabakh dell'Azerbaigian e i 7 distretti azerbaigiani adiacenti occupati dalle forze armate dell'Armenia da ormai più di due decenni. Per il diritto internazionale il Nagorno-Karabakh è parte dell'Azerbaigian. Ma dopo migliaia di morti, oltre a centinaia di migliaia di profughi, la situazione di occupazione armena è ancora invariata.

Nel maggio del 1994 l'Armenia e l'Azerbaigian, infatti, sospesero le ostilità e firmarono l'Accordo di Bishkek, ma ciò non portò al disarmo. Il cessate il fuoco è spesso violato. E i negoziati, ormai da anni, sono in un vicolo cieco. L'occupazione riguarda circa il 20 per cento dei territori riconosciuti internazionalmente dell'Azerbaigian ed ha

l'Opinione

Ue-Salvini, scontro sui porti libici

L'Opinione

L'Opinione - 17 luglio 2018

2 Комментарий 1

L'Opinione

Məqalələrdə 2014-cü il iyulun 11-də azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda doğma torpaqlarını və ata-analarının məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsindən, onların yanında olan Həsən Həsənovun isə qətlə yetirilməsindən dörd il keçdiyi, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış, beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan, Ermənistanın nəzarəti altında olan qondarma rejimin qanunsuz olaraq D.Əsgərovu ömürlük, Ş.Quliyevi isə 22 il müddətinə azadlıqdan məhrum etdiyi bildirilir. Habelə sözügedən vətəndaşların insan hüquqlarına zidd rəftara məruz qaldıqlarını sübut edən görüntülərin mövcudluğu səbəbindən məsələnin beynəlxalq müstəviyə çıxdığı, o görüntülərin Ermənistan tərəfindən mülki şəxslərin girov götürülməsini qadağan edən və hərbi münaqişələr zamanı mülki şəxslərə münasibətdə humanist davranış tələb edən 1949-cu il Cenevrə Konvensiyası qarşısında götürdüyü öhdəlikləri kobud şəkildə pozduğunu sübut etdiyi vurğulanır. Bu xüsusda Ermənistanın Azərbaycan tərəfinin humanitar hüquq normalarına əməl olunmasına və saxlanılmış mülki şəxslərin tez bir zamanda azad edilməsinə dair çağırışlarına məhəl qoymadığı diqqətə çatdırılır.

Yazılarda Ermənistanın bu addımı qeyri-humanist bir addım kimi qiymətləndirilərək münaqişənin sülh yolu ilə həllinə çətinliklər yaratdığı, təcavüz və Azərbaycan torpaqlarının işğalını möhkəmləndirməyə istiqamətlənmiş məqsədyönlü siyasət yürütdüyü qeyd olunur. Məqalələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri, habelə Xocalı soyqırımı barədə məlumat verilir və beynəlxalq ictimaiyyətin çağırışlarına, beynəlxalq qurumlar tərəfindən qəbul edilmiş sənədlərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadığı bildirilir.

# Pakistanlı iş adamları Azərbaycanla fəal əməkdaşlığa dəvət ediliblər



***Azərbaycan xarici investisiyalar üçün əlverişli və cəlbedici ölkədir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) AZƏRTAC-a bildiriblər ki, bunu qurumun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev Azərbaycan-Pakistan işgüzar görüşündə deyib. İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə keçirilən görüşdə hər iki tərəfdən sənaye, kənd təsərrüfatı, tekstil və s. sahələrdə fəaliyyət göstərən 40-a yaxın iş adamı iştirak edib.***

Tədbirdə AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin qazandığı iqtisadi uğurlar barədə məlumat verib, Azərbaycanın xarici investisiyalar üçün əlverişli və cəlbedici ölkə olduğunu vurğulayıb. Yusif Abdullayev Pakistan və Azərbaycan arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin böyük potensiala malik olduğunu qeyd edərək iş adamlarını fəal əməkdaşlığa dəvət edib. Azərbaycana səfərindən məmnunluğunu bildirən Pəncab vilayətinin Sənaye və Ticarət Palatasının prezidenti Ali Ansar Ghumman Azərbaycan-Pakistan münasibətlərinin uğurla inkişaf etdiyini, qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini vurğulayıb, Pakistanın iqtisadiyyatına və biznes imkanlarına dair məlumat verib. Sonra Azərbaycanın investisiya mühiti və biznes imkanlarına dair təqdimat keçirilib. Tədbir ikitərəfli görüşlərlə davam edib.

# Mübariz Qurbanlı: Gəncə ssenarisini həyata keçirmək istəyənlər tam iflasa uğradılar



İlkin araşdırmalar onu göstərir ki, Gəncədə terror aktlarını törədənlər din pərdəsi altında gizlənmiş cinayətkar elementlərdir. Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gəncə İmamzadə Dini Kompleksində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə keçirilən müşavirədə deyib. /Trend/

M.Qurbanlı bildirib ki, Gəncə hadisələrinin arxasında dayanaraq həmin ssenarisini hazırlayanların əsas məqsədi bu cinayətlər vasitəsilə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq və Azərbaycanın müstəqilliyinə xələl gətirmək olub: "Lakin bu ssenarini həyata keçirmək istəyənlər, eyni zamanda, onun icraçıları tam iflasa uğradılar".

Komitə sədri vurğulayıb ki, bu hadisələri törədənlərin İslama və müsəlman aləminə heç bir aidiyyəti yoxdur: "Bu cinayəti törədənlər Azərbaycan əleyhinə olan dairələrin nümayəndələridir və bunların cinayəti cəzasız qalmayacaq".

M.Qurbanlı bildirib ki, Azərbaycanda dövlət-din modeli var: "Azərbaycanda dövlət-din modeli Azərbaycan Konstitusiyasında öz əksini tapıb. Azərbaycan dünyəvi dövlətdir və bununla bərabər Azərbaycan dövləti dinimizə, İslami dəyərlərə həddindən artıq və hərtərəfli diqqət və qayğı göstərir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı bir ölkədir. Bizim ölkəmizdə bütün dinlərə və xalqlara eyni cür yanaşılır. Ona görə də Azərbaycanın tolerant, multikultural dəyərləri həm İslam dünyasına, həm də bütün dünyaya örnək olaraq öyrənilir və təqdir edilir".

Komitə sədri vurğulayıb ki, Azərbaycanda dini mühitdə böyük bir sabitlik var və ölkədə heç zaman din üzərində qarşıdurma olmayıb: "Biz imkan verməməliyik ki, Azərbaycanda kimlərsə din adı altında hansısa qruplarda gizlənərək cinayətlər tpрətsinlər, müstəqilliyimizə, ictimai-siyasi sabitliyimizə təhdidlər yaratsınlar".

# XİN rəsmisi: "Ölkəmizin gücündə xalq-iqtidar birliyi dayanır"



"Azərbaycan Prezidenti İlham Əliyev hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi görüşdə də haqlı olaraq bildirdi ki, ölkəmizə qarşı müxtəlif təxribatlardan, vasitələrdən istifadə edərək kampaniya aparmağa cəhd göstərən dairələr vardır. Bu xarici media vasitələrində Azərbaycana qarşı provokativ və tamamilə dezinformasiya xarakteri daşıyan məlumatların yerləşdirilməsində özünü göstərmişdir. Cənab Prezident də öz çıxışında bu məsələyə toxunmuşdu". Bunu SİA-ya açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

Qurum sözçüsünün sözlərinə görə, gedən proseslər bir daha onu göstərdi ki, bu kimi yazıların, kampaniyaların Azərbaycana heç bir təsiri yoxdur: "Çünki Azərbaycan dövləti güclüdür. Ölkəmizin gücündə də ilk növbədə xalqın dəstəyi və xalq-iqtidar birliyi dayanır. Gəncədəki son hadisələr bir daha göstərdi ki, yenə də ölkəmizin inkişafı, onun müstəqil siyasəti təkcə Ermənistanı yox, bəzi başqa xarici dairələri də ciddi şəkildə narahat etməkdədir. Azərbaycan öz müstəqillik tarixində bu kimi təxribatları çox görmüşdür. Azərbaycanın müstəqil, sabit və davamlı inkişafı ilk növbədə xalq-iqtidar birliyinə əsaslanır".

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi iclasda birmənalı olaraq bildirmişdi ki, Azərbaycana qarşı yalan, iftira üzərində qurulmuş kampaniyaların heç bir səmərəsi olmayacaq.

# Ağbulaq Xizək Mərkəzinin təməli atılıb

***Şahbuz rayonunun Ağbulaq kəndi geniş turizm potensialına malikdir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür.***













Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 17-də Ağbulaq kəndində Xizək Mərkəzinin təməlatma tədbiri olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin layihəsinə baxıb.

Məlumat verilib ki, mərkəzdə ümumi uzunluğu 1500, eni isə 30 metr olan dağ-xizək enişi, kanat yolu, xizəksürmə məktəbi, əyləncə və uşaq parkları yaradılacaq, süni qaryaratma sistemləri qurulacaqdır. Mərkəzin əsas infrastrukturu kanat yoludur. Uzunluğu 952 metr olan kanatın başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metr olacaqdır. Kanat yolunda hər biri 4 yerlik olmaqla 58 oturacaq quraşdırılacaqdır ki, bu da saatda 1000-dən artıq insana xidmət etməyə imkan verəcəkdir. Əyləncə və uşaq parklarında, eləcə də başlanğıc sahədə 231 metrlik konveyr xətləri yaradılacaqdır. Mərkəzin lazım olan qar örtüyünü təmin etmək üçün 26 sabit və 2 hərəkətli süni qaryaratma sistemi qurulacaqdır. Həmçinin ərazidə turistlərin istirahəti üçün də şərait yaradılacaq, xidmət sahələri istifadəyə veriləcəkdir.

Tikinti işləri dağ-xizək mərkəzlərinin yaradılması sahəsində böyük iş təcrübəsi olan Fransanın "MND" şirkətinin layihəsi əsasında həyata keçiriləcək. Şirkətin mühəndisi Xavier Goya deyib ki, dağ xizəkçiliyinin inkişafı üçün təbii şərait mühüm amildir. Ərazinin relyefi və iqlim xüsusiyyətləri bunun üçün geniş imkanlar açır. Layihələndirmə işləri aparılarkən bu amil əsas götürülüb. Şirkət 35 ildir dünyanın bir çox ölkəsində dağ-xizək mərkəzlərinin yaradılması layihəsini həyata keçirir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Fransanın "MND" şirkətinin mühəndisi Xavier Goya beton qarışığını bünövrəyə tökərək mərkəzin təməlini qoyublar.

Ali Məclisin Sədri tikinti işləri aparılarkən keyfiyyət amilinin əsas götürülməsi və mühəndis-texniki tələblərə əməl edilməsi, təbiətə ziyan vurulmaması və yaşıllıqların qorunması barədə tapşırıqlar verib.

Həmin gün Ali Məclisin Sədri Ağbulaq kəndində turizmin inkişafı sahəsində həyata keçirilən digər tədbirlərlə də maraqlanıb.

Qeyd olunub ki, muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaqda bu məqsədlə kompleks işlər görülür. Bu ildən etibarən kənddəki bütün evlərin dam örtüyü dəyişdirilir, fasadlar yenilənir, yararsız tikililər sökülür, həyətlərdə abadlıq işləri aparılır və çəpərlənir, lazımi kommunal-məişət şəraiti yaradılır. Yaşayış məntəqəsindən kənarda isə yeni təsərrüfat binaları tikilir. Həyata keçirilən tədbirlər, zəngin təbii turizm ehtiyatları və müasir sosial infrastruktur Ağbulaqda kənd turizminə üstünlük verənlər üçün ideal şərait yaradır.

Ali Məclisin Sədri abadlaşan kənd evlərində olub, sakinlərlə görüşüb.

Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mətləb Məmmədov sakinlər adından minnətdarlıq edərək deyib ki, Ağbulaq kəndi müasir inkişaf dövrünü yaşayır. Kənddə aparılan kompleks quruculuq işləri və yaradılan şərait sakinlər tərəfindən razılıqla qarşılanır. Yaradılan şəraitin nəticəsidir ki, məskunlaşma xeyli artıb. Artıq Ağbulaq turizm kəndidir. Sakinlər öz evlərini turistlərə kirayə verməklə və onları gündəlik qida məhsulları ilə təmin etməklə yaxşı gəlir götürəcəklər. Bütün bunlar kənd əhalisinin rifahının daha da yaxşılaşmasına hesablanıb. Hər bir sakin də çalışır ki, bu işə öz töhfəsini versin.

Ali Məclisin Sədri kənddə aparılan abadlıq işlərinin davam etdirilməsi, yaradılan şəraitdən səmərəli istifadə olunması və payız aylarında iməciliklərin keçirilməsi ilə bağlı tapşırıqlar verib.



# Gəncədə terror aktlarının dini şüarlar altında törədilməsi İslam dininə qarşı ən böyük cinayətdir



***İyulun 17-də Gəncə İmamzadə Dini Kompleksində 10 iyul hadisələri zamanı həlak olan polis zabitlərinin anım mərasimi keçirilib. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə keçirilən tədbirdə QMİ-nin sədri Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, Gəncə Şəhər İcra Hakimiyyətinin əməkdaşları, QMİ-nin bölgələr üzrə səlahiyyətli nümayəndələri, din xadimləri, dini icmaların üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirlər.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, İmamzadə ziyarətgahında iyulun 10-da Gəncədə baş verən hadisələr zamanı şəhid olmuş polis zabitləri İlqar Balakişiyevin və Səməd Abbasovun ruhuna ehsan verilib, namaz qılınıb, müqəddəs Qurani Kərimdən ayələr oxunub.

Anım tədbirində 2016-cı ildə Gəncə İmamzadə Dini Kompleksinin yenidənqurmadan sonra Prezident İlham Əliyevlə birgə açılışında iştirak etdiyini xatırladan Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə deyib ki, tədbirin keçirilməsində məqsəd iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və bir nəfər polis əməkdaşına qarşı törədilmiş sui-qəsd, bir həftə sonra isə iyulun 10-da şəhərin mərkəzində bir qrup dini radikal şəxsin təxribat törətməyə cəhd göstərdiyi zaman həmin iğtişaşların qarşısını alarkən iki nəfər yüksək rütbəli polis zabitinin faciəli şəkildə şəhid edilməsi ilə bağlıdır.

Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, baş vermiş hadisələr dövlət məmuruna və ictimai asayişi qoruyan əməkdaşlara qarşı düşünülmüş terror aktıdır. "Bu gün Azərbaycanın siyasi, iqtisadi nailiyyətlərini, eləcə də yürütdüyü daxili və xarici siyasəti qəbul etmək istəməyən qüvvələr mövcuddur. Xüsusən də Azərbaycanda düşmən qüvvələrə, ermənilərə, onların xüsusi xidmət orqanlarına işləyənlərin bu təxribatda rolu var", - deyə Hacı Allahşükür Paşazadə qeyd edib.

Erməni katolikosu Qaraginlə görüşərkən aralarında getmiş dialoqu xatırladan Qafqazın şeyxi deyib: "Mən ondan soruşdum ki, nə üçün sizin qüvvələr Azərbaycana qarşı bu qədər təxribatlar törədirlər? Cavab verdi ki, siz çox inkişaf edirsiniz, varlı dövlətsiniz və mən də sizə qarşı təxribat aparıram. Beləliklə, Qaragin mənimlə olan qısa dialoqunda etiraf etdi ki, onlar Azərbaycana qarşı daim təxribat planları hazırlayırlar".

Allahşükür Paşazadə bildirib ki, iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına və onun mühafizəçisi, polis serjantına açılan atəş həm də Azərbaycan dövlətçiliyinə qarşı açılmış atəşdir. Ona görə də ölkənin bütün dindarları məlum hadisəni qətiyyətlə pislədilər. İyulun 10-da isə şəhərin mərkəzində baş vermiş təxribatda özlərinin xidməti vəzifəsini yerinə yetirərkən iki yüksək rütbəli polis əməkdaşının şəhid olması onu göstərir ki, baş vermiş bütün hadisələr əvvəlcədən düşünülmüş, məqsədyönlü şəkildə aparılan siyasətdir və Azərbaycanda iğtişaşların yaradılması ölkəmizin rifahını istəməyən qüvvələr tərəfindən həyata keçirilib.

Sovet hakimiyyəti dövründə respublikamızda cəmi 17 məscidin olduğunu deyən QMİ-nin sədri qeyd edib ki, hazırda ölkəmizdə 2 minə yaxın məscid fəaliyyət göstərir. 2016-cı ildə Azərbaycanda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, 2017-ci ildə ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli"nin elan edilməsi, həmin ildə çoxsaylı beynəlxalq tədbirlərin təşkili, İlahiyyat İnstitutunun təsis edilməsi, bu ildən isə mədrəsələrin fəaliyyətə başlaması dövlət-din münasibətlərinin, dini, milli mənəvi dəyərlərimizə verilən qiymətin yüksək səviyyədə olduğunu göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, həm iyulun 3-də, həm də iyulun 10-da Gəncədə baş vermiş cinayət hadisələri Prezident İlham Əliyev tərəfindən nəzarətə götürülüb və respublikanın hüquq-mühafizə orqanlarında baş vermiş terror hadisəsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər həyata keçirilib. Terror hadisəsini törədənlərin bir qrupunun həbs edildiyini, qanlı cinayəti törədənin məhv edildiyini və istintaq işinin davam etdiyini deyən Mübariz Qurbanlı diqqətə çatdırıb ki, bu ssenarini hazırlayanların əsas məqsədi həmin cinayətlər vasitəsilə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, Gəncəbasar bölgəsində öz cinayətlərini daha böyük əraziyə yaymağa cəhd göstərmək və ölkəmizin müstəqilliyinə zərbə vurmaq olub. Lakin həmin ssenarini həyata keçirmək istəyənlər, eyni zamanda, onun icraçıları tam iflasa uğradılar. Prezident İlham Əliyev baş vermiş hadisələrlə əlaqədar hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi müşavirədə baş vermiş hadisənin tam siyasi-hüquqi qiymətini verib.

Azərbaycandakı dövlət-din modelindən danışan DQİDK-nın sədri qeyd edib ki, bu modelin əsas müddəaları və prinsipləri Ulu Öndərin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapıb. Konstitusiyada əks olunub ki, Azərbaycan hüquqi, dünyəvi, demokratik ölkədir. Lakin bununla yanaşı, Azərbaycan dövləti islami dəyərlərə və İslam dininin inkişafına, bu sahədə dini kadrların hazırlanmasına çox böyük diqqət və qayğı göstərir.

"Azərbaycan xalqının 96 faizi İslam dininə etiqad edir Bununla yanaşı, ölkəmiz çoxkonfessiyalı və çoxmillətli ölkədir. Bizim ölkəmizdə bütün dinlərə və millətlərə eyni cür hörmət və ehtiramla yanaşılır. Buna görə də Azərbaycanın tolerant və multikultural dəyərləri həm İslam ölkələri, həm də bütün dünya tərəfindən nümunə olaraq öyrənilməkdədir. Bu gün Azərbaycanda bütün məzhəblər arasında münasibətlərin yüksək səviyyədə olması, vəhdət namazlarının qılınması, məscidlərdə möminlərin öz ibadətlərini sərbəst şəkildə yerinə yetirməsi üçün hərtərəfli şərait yaradılıb və bütün bu tədbirlər onu göstərir ki, ölkəmizdə dini sahədə böyük bir sabitlik var", - deyə M. Qurbanlı qeyd edib.

DQİDK-nın sədri əlavə edib ki, tarixən Azərbaycanda dinlər, məzhəblər və təriqətlər arasında heç zaman qarşıdurma olmayıb: "Ona görə də biz imkan verməməliyik ki, Azərbaycanda hər hansı qüvvə dini istiqamətdə təxribatlar törədərək dövlət müstəqilliyimizə, eyni zamanda, dini sahədəki inkişafımıza təhlükə yaratsınlar. Buna görə imam və axundların məscidlərdəki dini moizələri daha çox islami dəyərlərin qorunmasına, təbliğinə yönəlməli, dini mövzuda ədəbiyyatların, yeni-yeni əsərlərin yazılması, yayılması, bu mövzuda media resurslarında kütləvi təbliğat və təşviqat işlərinin aparılmasına geniş yer verilməlidir".

Sonra QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, QMİ sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Sabir Həsənli, ilahiyyatçı - din xadimi Hacı Şahin, AMEA Gəncə Bölməsinin akademik-katibi Fuad Əliyev, ilahiyyatçı - din xadimi, İçərişəhər "Cümə" məscidinin axundu Hacı Surxay Məmmədli, şəhid polis zabitlərinin qohumları, eləcə də QMİ sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov çıxış ediblər. Çıxışlarda bildirilib ki, son günlər Gəncədə baş verən hadisələr, törədilən cinayətkar əməllər İslam dinindən uzaqdır. Yalnız müəyyən qruplar var ki, din pərdəsi altında öz təxribatçı əməllərini həyata keçirməyə çalışırlar. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilib. Dini şüarlar altında törədilən bu terror aktları, özlüyündə, İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir.

Qeyd olunub ki, bu qruplar ölkəmizdə sabitliyi pozmağa, onun inkişafını əngəlləməyə yönəlmiş addımları ilə Azərbaycan dövlətinə zərbə vurmaq niyyətində idilər. Lakin Azərbaycan polisi bu cinayətkar əməllərin qarşısını qətiyyətlə aldı, ölkədə sabitliyin pozulmasına imkan vermədi. Təəssüf ki, iğtişaşların qarşısının alınması zamanı iki polisimiz də şəhid oldu.

Diqqətə çatdırılıb ki, Azərbaycanın hər bir yerində olduğu kimi, Gəncə dindarları da daim dövlətimizdən qayğı görüb, şəhərdəki məscidlər, dini məbədlər yenidən qurularaq dindarların istifadəsinə verilib. Ümumiyyətlə, Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər.

Anım tədbirinin iştirakçılarına Qafqaz Müsəlmanları İdarəsinin Gəncə hadisələri ilə bağlı yaydığı bəyanat paylanılıb.

Xatırladaq ki, iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı terror aktı törədilib, bir həftə sonra, iyulun 10-da saat 20 radələrində 150-200 nəfərdən ibarət bir qrup radikal ünsür şəhər icra hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərib. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınıb.

Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən polis zabitləri İlqar Balakişiyev və Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olublar.

# Turizm ölkə iqtisadiyyatına gəlir gətirən sahədir

*Cari ilin 6 ayı ərzində Azərbaycana dünyanın 189 ölkəsindən 1 milyon 325 min turist gəlib*



***Qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində turizm sahəsində görülən işlər xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycanda da son illər ərzində turizm sahəsində mühüm addımlar atılıb, məqsədyönlü tədbirlər həyata keçirilib. Artıq ölkəmiz xarici turistlərin üz tutduğu tanınmış bir məkandır. Azərbaycanın, müntəzəm olaraq, beynəlxalq əhəmiyyətli mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi, bu ölkənin tanınmasında, xüsusilə əhəmiyyətlidir. Sevindirici hal ondan ibarətdir ki, Azərbaycana üz tutan xarici turistlər təkcə paytaxt Bakıda olmaqla kifayətlənmir, eyni zamanda, regionlardakı turizm istirahət mərkəzlərinə də üz tuturlar. Regionlarda turizmin inkişaf etdirilməsi istiqamətində görülən işlər də, öz növbəsində, xarici turistlərdə ümumən Azərbaycan barədə müsbət rəy formalaşdırır.***



Azərbaycanda turizmin inkişafına dövlət dəstəyi böyükdür və atılan addımlar "Odlar yurdu"nun regionun aparıcı turizm mərkəzinə çevrilməsi üçün münbit şərait yaradır. Turizmin iqtisadiyyata və regionun inkişafına göstərdiyi təsir böyükdür. Heç kimə sirr deyil ki, turizm sahəsinin inkişafı ölkədə yeni iş yerlərinin yaradılması, infrastrukturun yaxşılaşdırılması və ölkəyə valyuta gəlməsi baxımından, böyük əhəmiyyət kəsb edir. Bu da məlumdur ki, turizm bir çox ölkənin əsas gəlir mənbəyidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirdiyi kimi, turizm ixrac sahəsidir. Çünki bu, ölkəmizə valyuta gətirir. Son dövrün statistik rəqəmlərinə nəzər salsaq, görərik ki, həqiqətən də, turizm sahəsindən ölkə büdcəsinə kifayət qədər gəlir gəlir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 6 ayında isə 10 faiz artıb. Dövlət başçısı qeyd edib ki, bu ilin 6 ayında xarici vətəndaşlar Azərbaycanda ancaq bank kartları ilə 513 milyon manat pul xərcləyiblər. Bu, ancaq bank kartları ilə xərclənən pullardır və keçən illə müqayisədə 21 faiz çoxdur. Bu pullar xidmət sektoruna, iş yerlərinin yaradılmasına, ictimai obyektlərin fəaliyyətinə, ölkəmizin iqtisadiyyatına gedir və bizim makroiqtisadi sabitliyimizə müsbət təsir göstərir. Statistik məlumata əsasən, cari ilin yanvar-iyun ayları ərzində Azərbaycana dünyanın 189 ölkəsindən 1 milyon 325 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Ölkənin çoğrafi mövqeyi və malik olduğu təbiət potensialı turizm sənayesinin inkişafında böyük rol oynayır. Şərq-Qərb, Şimal-Cənub arasında təbii körpü rolunu oynaması və vacib nəqiyyat infrastrukturlarının qovşağında yerləşməsi Azərbaycanda turizm sənayesinin inkişafına güclü təsir göstərir. Nadir təbii-iqlim xüsusiyyətlərinin də olması "Odlar yurdu"nun aparıcı turist ölkələri arasında özünəməxsus yer tutmasına imkan verir. Şahdağ, Bazardüzü, Babadağ, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, şəlalələr, çoxsaylı göllər, qədim insan məskəni Qobustanın sərt və eyni zamanda, nadir palçıq vulkanları, qoruqlar və çimərliklər Azərbaycanın turizm potensialının əhəmiyyətli dərəcədə gücləndirir. Mütəxəssislərin araşdırmalarına görə, Qafqaz florasının bütün növlərinə Azərbaycanda rast gəlmək mümkündür.

Bu gün Azərbaycan sürətlə inkişaf edir, turizm sənayesinin ölkəmizdə hərtərəfli inkişaf etməsi üçün zəruri olan addımlar atılır və ölkənin təbiəti, relyefi, coğrafi mövqeyi də bu sahənin inkişafında rola malikdir.

**ZÜMRÜD**

# "Təhsil haqqında" Qanuna edilmiş dəyişikliklər bu sahəni daha da təkmilləşdirəcək



***Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin qayğısı nəticəsində ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Bu, Prezident İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlamasıdır. Dövlət tərəfindən təhsilin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təbii ki, təhsilin inkişafı ümumi inkişaf templəri ilə uzlaşmalıdır. Bu baxımdan, prioritetlər düzgün seçilir və onun üzərində işlər müəyyənləşmiş xətt üzrə aparılır. Qəbul olunmuş dövlət proqramları, həyata keçirilən islahatlar təhsilin keyfiyyət baxımından səviyyəsinin yüksəlməsinə səbəb olub. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"da təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsi əsas hədəflərdəndir.***

Bu günlərdə isə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı təhsilə ayrılan diqqət və bugünün tələblərinə uyğunlaşdırılmasına istiqamətlənib. Belə ki, "Təhsil haqqında" Qanunun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. "Təhsil haqqında" Qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili, pedaqoji fəaliyyətlə məşğul olma, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması və digər məsələlərlə bağlı dəyişikliklər edilib. Eyni zamanda, dəyişikliyə əsasən, sentyabrın 16-dan dekabrın 31-dək 6 yaşı tamam olan uşaqlar valideynlərinin müraciəti əsasında məktəblərə qəbul edilə biləcəklər. Lakin həmin kateqoriyadan olan uşaqlar xüsusi komissiyaların rəyi əsasında məktəbə qəbul olunurdular. Ancaq bu, qanunda təsbit edildiyi üçün, artıq komissiyalara və əlavə olaraq məktəblərin bu işlə bağlı müraciətlərə vaxt ayırmasına ehtiyac olmayacaq. Qanunda olimpiada qalibləri ilə bağlı dəyişikliyin də qəbul edilib. Beynəlxalq fənn olimpiadalarının qalibləri artıq heç bir müsabiqədən keçmədən ali məktəblərə istədikləri ixtisas üzrə qəbul oluna biləcəklər.

"Təhsil haqqında" Qanuna əlavə edilən maddəyə əsasən, müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislər də məktəblərdə dərs deyə biləcək.

Qanunda peşə təhsili ilə bağlı da dəyişiklik, müəllimlərin sertifikatlaşdırılması və s. yer alıb. "Təhsil haqqında" Qanuna edilmiş bu və ya digər dəyişikliklər təhsil sisteminin daha da təkmilləşdirilməsinə ciddi şəkildə müsbət təsirini göstərəcək.

**NƏZAKƏT**

## Gəncə hadisələri ilə əlaqədar daha dörd nəfər həbs edilib



İyulun 3-də və 10-da Gəncədə törədilmiş cinayət hadisəsi ilə əlaqədar iyulun 16-da daha dörd nəfər həbs edilib. Hüquq mühafizə orqanlarından AZƏRTAC-a bildiriblər ki, həbs olunanlardan Qurbanov Ceyhun Ələkbər oğlu Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevi və gələcəkdə barələrində terror aktı törədilməsi nəzərdə tutulmuş digər şəxsləri izləməkdə və onlar barədə məlumatları Yunis Səfərova çatdırmaqda təqsirləndirilir. C.Qurbanov Yunis Səfərovun yaxın qohumudur.

Həbs edilmiş digər şəxslər isə iyulun 10-da Gəncədə baş vermiş hadisənin fəal iştirakçıları Allahverdiyev Vüqar Rauf oğlu, Həsənov Ülvi Saləddin oğlu və Şəmkir rayonundan kriminal yönümlü bir neçə şəxsin kütləvi iğtişaşda iştirak etməsi üçün Gəncəyə aparılmasını təşkil etmiş Yusifov Alim Vahid oğludur.

## Maksim Oreşkin: Biznes Rusiya-Azərbaycan ikitərəfli əməkdaşlığının əsasını təşkil edir



Biznes Rusiya-Azərbaycan ikitərəfli əməkdaşlığının əsasını təşkil edir. Trend-in məlumatına görə, bunu Rusiya-Azərbaycan İşgüzar Şurasının iclasında RF-nin iqtisadi inkişaf naziri Maksim Oreşkin deyib.

Nazir bildirib ki, Şuranın fəaliyyəti əhəmiyyətli dərəcədə iki ölkə arasında əmtəə dövriyyəsinin artırılmasına xidmət edir: "2018-ci ilin 5 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin analoji dövrü ilə müqayisədə təqribən 21 faiz artaraq 900 milyon dolları ötüb" .

M.Oreşkin qeyd edib ki, Rusiya tərəfdən Şuranın üzvləri 50 şirkətdir: "Bunlar Azərbaycanda perspektiv layihələrin reallaşdırılmasına maraq göstərən banklar və sənaye şirkətləridir".

O əlavə edib ki, Azərbaycan iqtisadiyyatına Rusiya investisiyalarının həcmi təqribən 1,5 milyard dollar təşkil edir: "Söhbət neftqaz sektoru, maşınqayırma, əczaçılıq, kimya sənayesi, bank fəaliyyəti kimi istiqamətlərdən gedir. Azərbaycan tərəfi də investisiyaların artırılmasında maraqlıdır. Hər şeydən əvvəl bu, aqrar-sənaye sektoru və turizm sahəsidir".

M.Oreşkin rəhbəri olduğu nazirliyin əsas vəzifəsinin iki ölkə arasında qarşılıqlı biznes fəaliyyətinin gələcək inkişafına şərait yaratmaq olduğunu deyib:

"İkitərəfli əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilib: bu, ilk növbədə, ticarət maneələrinin aradan qaldırılması, nəqliyyat potensialının inkişafı, Azərbaycan ərazisində birgə istehsalatın yaradılmasıdır". İclas zamanı "R-Farm" şirkətlər qurupunun rəhbəri Aleksey Repik Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri seçilib.

# Media kapitanları Prezidentin mətbuata diqqətini yüksək qiymətləndirirlər

***Azərbaycançılıq ideologiyasının formalaşmasında, təbliğində, yayılmasında önəmli rolu olan Azərbaycan milli mətbuatı bu müqəddəs ideologiyanın ən güclü daşıyıcısıdır. Milli mətbuatımız və azərbaycançılıq yüz ildən artıqdır yol gəlir. 143 ildir milli mətbuatımız azərbaycançılıq ideologiyasının yorulmaz tərənnümçüsü, təbliğatçısı kimi özünü göstərə bilir. Gizlin deyil ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması günün tələblərinə cavab verən mühüm addım olaraq dəyərləndirilir.***



Milli mətbuatımızın 143 illik yubileyi ərəfəsində dövlət başçısı İlham Əliyev ötən gün ölkədə nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında sərəncam imzaladı. Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1 milyon manat ayrılıb. Azərbaycanın media kapitanları, baş redaktorları cənab Prezident İlham Əliyev tərəfindən atılan bu hümanist addımı bu cür dəyərləndirdilər. SİA onların təəssüratlarını sizə təqdim edir:

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini** <u>Müşfiq Ələsgərli:</u>



”Azərbaycan Prezidenti cənab İlham Əliyevin Azərbaycan mediasına diqqəti zaman-zaman olub. Demək olar ki, hər il Azərbaycan mediası üçün dövlətin imkanları daxilində lazımi dəstək göstərilir. Azərbaycan yeganə ölkədir ki, burada medianın inkişafı üçün dövlət dəstəyi konstitusiyası var və sistemli şəkildə mediaya yardım göstərilir. Həmçinin bu sistemli yardımdan başqa birdəfəlik yardımlar da olunur. Zaman göstərir ki, cənab Prezidentin bu addımı çox hümanistdir və doğrudur. Çünki son illərin təcrübəsi göstərir ki, bu cür yardımlar sayəsində Azərbaycan mediası özünün həm texniki imkanlarını xeyli artırıb, həm də peşəkarlıq, kadr yetişdirilməsi baxımından kifayət qədər uğurlu nailiyyətlər əldə edib. Bu nailiyyətlərin əldə edilməsində həmin dəstəyin rolu var.

Təsadüfi deyil ki, son bir neçə il ərzində baş verən hadisələr zamanı istər aprel hadisələri vaxtı, istər bugünkü söyüş kampaniyalarına cavab verilməsi vaxtı, istərsə də Gəncə hadisələri vaxtı medianın davranışları onu göstərdi ki, media dövlətimizin yanındadır və bu, öz mövqeyini çox peşəkar şəkildə ifadə edə bilir. Həmçinin Azərbaycanda ictimai rəyin düzgün istiqamətlənməsində yaxından rol oynayır. Zaman göstərir ki, media ayrılan o yardımlardan çox səmərəli şəkildə istifadə edir və özünün peşəkarlığının, texnoloji imkanlarını artırıb. Azərbaycan dövləti gücləndikcə mediaya olunan qayğılar daha da artacaq və inkişaf edəcək”.

**Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri** <u>Umud Rəhimoğlu:</u>



“Azərbaycan Prezidenti İlham Əliyevin mətbuata və jurnalistikaya göstərdiyi dəstəyi sayəsində ölkə mediası, sözün əsl mənasında, keyfiyyət dəyişiklikləri dövrünü yaşayır. Bu, ümumilikdə, müstəqil Azərbaycanın mətbuat tarixində məzmun etibarilə yeni, fərqli, daha dinamik, mütərəqqi mərhələnin başlanması kimi dəyərləndirilə bilər. Dövlətin və vətəndaş cəmiyyətinin hərtərəfli inkişafında kütləvi informasiya vasitələrinin, medianın özünəməxsus rolu var. Media ictimai rəyin formalaşdırılması ilə yanaşı, müxtəlif təmayüllərin cəmiyyətdə təşəkkül tapması üçün əsas vasitədir. Azərbaycan Mətbuat Şurasının medianın fəaliyyətini səmərəli şəkildə əlaqələndirməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun media qurumlarının inkişafı ilə hərtərəfli yardımı nəticəsində bu istiqamətdə vəziyyəti nəzərəçarpacaq dərəcədə müsbət yöndə dəyişib. Sevindirici haldır ki, son illər milli mətbuatımız ölkəmizdə gənc nəslə vətənpərvərlik hissinin aşılanması, dövlətçilik ənənələrimizin möhkəmləndirilməsi istiqamətində böyük uğurlar əldə edib.

Prezident İlham Əliyevin Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələri nümayəndələrinə mənzillərin verilməsi ilə bağlı göstərişi ölkəmizin media və vətəndaş cəmiyyətinə olan dövlət qayğısının bariz nümunəsidir. Bu gün Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində Azərbaycanda “Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası” əsasında mühüm layihələr icra edilir. Onlardan biri də məhz jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün atılan addımlardır. Əminliklə deyə bilərəm ki, Azərbaycan dünyada yeganə ölkədir ki, mətbuat nümayəndələrini mənzillə təmin etmək kimi təcrübəyə malikdir. Hesab edirəm ki, ölkə rəhbərliyi tərəfindən jurnalistikaya edilən bu diqqət və qayğı dünyanın digər ölkələrində sosial dövlət modeli olaraq tətbiq ediləcək”.

**“Bakı Xəbər” qəzetinin baş redaktoru** <u>Aydın Quliyev:</u>



“Cənab Prezidentin ötən gün imzaladığı sərəncam mediamıza Azərbaycanda dövlət dəstəyinin fasiləsiz bir prosesə çevrildiyini göstərən növbəti addımdır. Ölkəmizdə mediaya dövlətin dəstəyi artıq bir institut kimi formalaşıb və ildən-ilə təkmilləşir. Son illər biz mediaya dövlət dəstəyinin mövcud olan formalarına bir neçə əlavələrin edildiyini görürük. Belə ki, son 5-6 ildir ki, jurnalistlər əvəzsiz olaraq mənzillərlə təmin olunur, KİV-lərə birbaşa maliyyə yardımları ayrılır, jurnalistlərə müsabiqə yolu ilə maddi dəstək verilir, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yarandığı 2009-cu ildən bu günə kimi qəzetlərə müsabiqə əsasında yardım göstərilir. Son bir neçə ildə Milli Mətbuat günündə çap mediaya Cənab Prezidentin fondundan birbaşa maliyyə yardımı ayrılır.

Mediaya dövlət dəstəyi institutunun bundan sonra da, Azərbaycanda təkmilləşəcəyinə əminliyini ifadə edən baş redaktor söyləyib ki, medianın daha çox dövlətçi, vətənpərvər olması üçün özündən asılı olan hər şeyi edəcək: “Belə vəziyyətdə bizim üzərimizə düşən vəzifə dövlətin göstərdiyi təmənnasız dəstəyə rəğmən özümüzün vətəndaşlıq və dövlətçilik borcumuza sadiq qalmaq, ən çətin anlarda vətənin yanında olmaq, dövlətimizə, xalqımıza qarşı kənardan uzanan əllərin kəsilməsi üçün imkan və səlahiyyətlərimiz daxilində fəaliyyət göstərməkdir. Xüsusilə də son Gəncə hadisələri göstərdi ki, dövlətimizin əleyhinə kənardan medianın əli ilə edilən cəhdlərin qarşısının alınmasında biz medianın rolu böyükdür. Göstərilən diqqətə görə, dövlət başçısına təşəkkür edirəm”.

**“Şərq” qəzetinin baş redaktoru** <u>Akif Aşırlı:</u>



”Azərbaycan Prezidenti İlham Əliyev hər zaman ölkə mətbuatına diqqət və qayğı göstərib, problemlərinin həllinə çalışıb və buna da nail olub. Sevindirici haldır ki, Prezident İlham Əliyev Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələri nümayəndələrinə təmənnsız mənzillər təqdim edib. Eləcə də qəzetlərin maddi-texniki bazasının yaxşılaşdırılması haqqında ciddi tədbirlər görülüb. Təbii ki, bu tədbirlər hələ Ümummilli Lider Heydər Əliyevin zamanında olmuşdu. Hesab edirəm ki, Azərbaycanda ənənələrin formalaşmasında məxsusi rolu olan Ümummilli Liderimiz Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyev Azərbaycan jurnalistlərinin çox yaxın dostu idi. Ulu öndər Heydər Əliyev bizim bütün problemlərimizə çox həssas yanaşan, onları diqqətlə öyrənən və bu problemlərin həlli yolunda çox ciddi addımlar atan böyük dövlət xadimi idi. Hazırda bu kurs cənab İlham Əliyev tərəfindən uğurla davam olunur.

Milli Mətbuat Günü ərəfəsində bizə Prezident İlham Əliyev tərəfindən bu cür yardımların ayrılması artıq ənənə halını alıb. Dövlət başçısına öz təşəkkürümüzü bildiririk. Bu kimi addımlar dünya üçün bir örnək sayıla bilər. Azərbaycan jurnalistlərinin sosial problemlərinin, maddi-texniki bazasının möhkəmləndirilməsi çox ciddi addımlardan biridir”.

***Ceyhun Rasimoğlu***

## Neft Fondu gənclərin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsinə indiyədək 207,4 milyon manat ayırıb



***Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu il iyulun 1-dək “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsinə 207,4 milyon manat yönəldib.***

AZƏRTAC ARDNF-ə istinadla xəbər verir ki, təkcə cari ilin birinci yarısında Neft Fondu tərəfindən 2 milyon manat vəsait “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsinə ayrılıb.

## Qəri Counz: Ceyhandan neftin 3 milyardıncı barrelinin nəqli BTC-nin əldə etdiyi əlamətdar nailiyyətdir

***Ceyhan limanından xam neftin 3 milyardıncı barrelinin nəql olunması Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin əldə etdiyi əlamətdar nailiyyətdir. Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib.***

O qeyd edib: “Ceyhan limanından xam neftin 3 milyardıncı barrelinin nəql olunması BTC-nin əldə etdiyi əlamətdar nailiyyətdir. İstismara başladığı vaxtdan etibarən boru kəməri müstəsna səmərəlilik nümayiş etdirib. Onun inşası nəhəng mühəndis-texniki nailiyyətdir və 12 illik təhlükəsiz, etibarlı və məsuliyyətli əməliyyatlardan sonra bu boru kəməri əməliyyat səmərəliyinin bariz nümunəsi və üç ölkə boyunca vahid komandanın gerçəkləşdirdiyi dünya miqyaslı fəaliyyət kimi təsvir oluna bilər. Əminliklə deyə bilərəm ki, BTC-nin fəaliyyəti dünyada ən təhlükəsiz və ekoloji cəhətdən zərərsiz boru kəməri əməliyyatlarından biridir”.

# Paşinyan və Brüssel: Moskvanın sərt baxışları altında "müstəqillik tanqosu"

***İnsanlar yenə də aldandılar. Bu dəfə ermənіləri "küçə demokratı" yanlış yola saldı. Nikol Paşinyan adlı müxalif siyasətçi hakimiyyətə gələrək demokratiya vədi verdi, lakin bunun altından adi saqqallı radikal çıxdı. İndi erməni cəmiyyəti bu "saqqallı"dan canını qurtarmağa çalışır. Moskva da hələlik qıcıqlandığını ifadə edir. Bunların fonunda N.Paşinyan Brüsselə üz tutmağa qərar verib. Ekspertlər bu məqama ayrıca diqqət yetirirlər. Bu nədir - İrəvanın müstəqillik həvəsi, yoxsa növbəti siyasi blef? Bir sıra mütəxəssislər Ermənistanın xarici siyasət kursunu dəyişə biləcəyini deyir. Digərləri isə bunun hazırkı şərtlər daxilində mümkün olmadığını müdafiə edir. Çünki əgər Rusiya Suriyada Qərbə meydan oxuyursa, əsrlərdir ki, at oynatdığı Cənubi Qafqazda tam təsiri altında olan və özünün qondardığı bir ölkəni Avropaya necə verə bilər? Real siyasi mövqedən baxanda bu, yaxın perspektiv üçün mümkün deyildir. Biz hələ uzaq perspektivi demirik. Bütün bunlara görə, N.Paşinyanın Avropa oyununun arxasında nələrin dayana biləcəyi üzərində geniş dayanmağa ehtiyac görürük.***




## "Küçə demokratı": Aİ paytaxtında yürüş həvəsi

Ermənistan hakimiyyətinin xarici siyasətdə qeyri-konstruktiv mövqe tutması ilə bağlı çox yazılar dərc olunub. Mütəxəssislər bu siyasətin faktiki olaraq iflasa uğradığını danılmaz faktlarla sübut edirlər. Rəsmi İrəvan isə dəyişmək fikrində olmadığını hər fürsətdə nümayiş etdirir. Artıq Ermənistan vətəndaşları Nikol Paşinyanın da səmərəli bir addım atacağına ümidlərini kəsiblər. Sosial şəbəkələrdə bununla bağlı ermənilər fikirlərini açıq ifadə etməkdədirlər.

İndi erməni KİV-ləri N.Paşinyanın Brüsselə olacaq səfəri ətrafında müzakirələrə baş vurur. Müxtəlif məqalələrdə bu addımın xarici siyasətə hansı təsirləri edə biləcəyi ilə bağlı tezislər irəli sürülür. Ancaq burada iki maraqlı məqam vardır ki, geosiyasi müstəvidə müəyyən düşüncələrə yol açır. Həmin düşüncələr Ermənistan rəhbərliyinin növbəti dəfə kiçik və süni qondarılmış bir Cənubi Qafqaz ölkəsini dalana dirəməsi ilə bağlıdır.

Məsələ ondan ibarətdir ki, erməni siyasi-analitik təfəkkürü rəsmi İrəvanın xarici siyasətini ziddiyyətsiz təqdim edə bilmir. Onlar pafosla Rusiya ilə strateji əlaqələrdən hansı məntiqlə bəhs edirdilərsə, indi eyni hay-küy və absurdluqla Avropa İttifaqı və NATO ilə əməkdaşlığın inkişaf perspektivlərindən dəm vururlar. Hər iki halda ermənilərin arqumentləşdirmə məntiqi sünidir. Elə bir tutarlı fakt ortaya çıxara bilmirlər ki, insanlar ona uyğun olaraq desinlər ki, Ermənistan-Aİ əməkdaşlığı yüksələn xətlə inkişaf etməlidir, yaxud Ermənistan-NATO əlaqələrinin dərinləşməsi üçün zəruri şərait mövcuddur. Fakt və əsaslandırma yoxdur, əvəzində, pafos və bədnam din eyniliyi, mədəniyyət oxşarlığı haqqında şovinist iddialar mövcuddur.

Konkret situasiyaya baxaq. Erməni mətbuatı N.Paşinyanın Brüsselə səfəri ilə bağlı tərəflərin qarşılıqlı olaraq geniş əməkdaşlığa can atdıqlarından yazır. Hətta Aİ-nin Ermənistandakı nümayəndəsinin belə fikrini gətirir: "Biz N.Paşinyanı isti qarşılayacağıq" (bax: Vajneyşiy messidj so storonı Zapada nakanune vizita Nikola Paşinəna / 1in.am, 5 iyun 2018). Aİ diplomatiyasının rəhbəri Federika Moqerini isə Ermənistanla əlaqələri inkişaf etdirməklə bağlı əldə olunan razılığı "uğur tarixi və tarixi imkan" adlandırıb (bax: əvvəlki mənbəyə).

Deməli, hazırda Aİ-Ermənistan münasibətləri cəbhəsində vəziyyət belədir: tərəflər əməkdaşlığı etməyə hazır olduqlarını bildirirlər. Vəssalam! Eyni ritorikanı uzun illər Serj Sarkisyan işlətmirdimi? Brüssel və İrəvan bir-birlərini tərif etmirdilərmi? Avropanın müxtəlif təşkilatları Ermənistanı Cənubi Qafqazın ən azad ölkəsi kimi qiymətləndirmirdilərmi? Onlar bilirdilər ki, reallıq belə deyil və yalan danışmaqdan çəkinirdilər.

İndi də eyni vəziyyətdir. N.Paşinyan küçə adamı kimi heç bir real, konkret və demokratik fikir irəli sürməyib. Onun mülahizələri radikal küçə zorbaçısının fikirlərindən elə də fərqlənmir. Analitiklər indiyə qədər N.Paşinyanın elə bir fikrini nümunə gətirə bilmirlər ki, demokratiyaya, müasirliyə və səmərəli əməkdaşlığa səsləsin. Əksinə, onun artıq Rusiya kimi böyük bir dövlətin başçısını qıcıqlandırmağa başladığından bəhs edirlər. Praktiki olaraq Ermənistanın xarici siyasətində Qərbə tərəf addım atdığını təsdiq edən bircə fakt belə yoxdur. Olması da gözlənilən deyil. Çünki Moskva dərhal öz "erməni çocuğu"nun qulağını dartar.

## Siyasi blef: köhnə diplomatiyanın yeni nəğməsi

Əvəzində nə vardır? Yenə də Serj Sarkisyanın dövründə olduğu kimi, söz! Nikol Paşinyan onu indi bir az fərqli tonda ifadə etməyə çalışır. Ermənistanın suverenliyinin təmin edilməsi və hər iki böyük geosiyasi düşərgə ilə eyni zamanda və eyni səviyyədə əməkdaşlıq edə bilmək imkanından danışır. Lakin anlamır ki, bu yalnız xəyalda ola bilər, real siyasət konkretlik və dəqiqlik tələb edir - ya bu tərəfdəsən, ya da o tərəfdə! Bitərəf və müstəqil mövqe o zaman ola bilər ki, müstəqil xarici siyasət yeritmək potensialın ola. Bu isə Ermənistan rəhbərliyində yoxdur və belə getsə olmayacaq da! Çünki Ermənistanın bütün siyasi sahəsinə Rusiya tam nəzarət edir. Məhz Moskvanın himayədarlığı sayəsində formal da olsa, Ermənistan adlı dövlət xəritədə var.

Belə deyilsə, Ermənistan iqtisadiyyatının neçə faizinin Rusiya ilə birbaşa bağlı olduğunu desinlər. Ermənistanın enerji infrastrukturunun neçə hissəsinə Rusiyanın nəzarət etdiyini bir daha söyləsinlər. Ermənistanın hərbi qüvvəsinin neçə faizinin Rusiyadan asılı olduğunu, onun təhlükəsizlik sistemində nə qədər rus təsirinin mövcudluğunu açıqlasınlar. Siyahını uzatmaq olar. Bütün hallarda ermənilərin yolunun Moskvadan keçdiyini görərsiniz. Belə bir ölkə Aİ ilə necə müstəqil əlaqələr qura bilər?

Əgər belə deyilsə, nəyə görə N.Paşinyan küçədə etiraza başlayanda Rusiyadan mesaj gəldi ki, bu ölkədə yaşayan ermənilər Ermənistan əhalisindən çoxdur? Əgər onlar Ermənistana axın etsələr, səslər kimin xeyrinə veriləcək? Cavab aydındır, hətta N.Paşinyana belə!

Bəs onda söhbət nədən gedir? Burada bir neçə variant ola bilər. Ermənistan növbəti blefi ilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların qarşısına yeni əngəllər çıxarmağa çalışa bilər. Məsələn, Qərbi bu prosesdə daha da fəallaşdırmağa cəhd edərək vasitəçilərin özləri arasında fikir ayrılığını dərinləşdirər. Deyək ki, Qərb dövlətləri ilə Rusiya arasında danışıqların necə davam etdirilməsi ətrafında fikir ayrılığı yarana bilər. Tərəflərdən hər biri özünü başlıca təşəbbüskar və "həll açarı"na sahib tərəf kimi təqdim etməyə çalışarlar. Bu mənasız söz savaşı isə illər aparar.

Başqa məqam rəsmi İrəvanın Moskvaya ondan uzaqlaşa biləcəyi mesajını verməklə əlaqəli ola bilər. Bunu isə ermənilər Rusiya-Türkiyə və Rusiya-Azərbaycan əməkdaşlığının daha da inkişaf etməsi fonunda qəsdən edərlər. Çünki son vaxtlar həm Türkiyə, həm də Azərbaycan konkret sahələrdə öz böyük qonşuları Rusiya ilə əlaqələri inkişaf etdiriblər. Məsələn, Rusiya Azərbaycanla hərbi əməkdaşlıqla yanaşı, Xəzərin statusunun müəyyənləşməsində ortaq dil tapıb və hətta TANAP-ı alqışlayıb. Bu o deməkdir ki, zaman-zaman Rusiya və Azərbaycan bütün məsələləri həll edə bilərlər. O cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllində ortaq mövqeyə gəlmək mümkündür.

Üçüncü ssenari Qərbi Cənubi Qafqazdakı geosiyasi proseslərə daha çox qarışdırmaqla, ümumilikdə, regionda gərginlik yaratmaqla bağlı ola bilər. Bu halda da Ermənistan ümid edir ki, münaqişə ətrafında aparılan danışıqlar dalan dirənməlidir. Çünki Rusiya ilə Qərb arasında Cənubi Qafqaz məsələsində ciddi fikir ayrılığı olsa, danışıqlar səmərəli ola bilməz. Tərəflərin hər biri öz maraqlarına üstünlük verməklə başqa mövqeni qəbul etmək istəməyəcək.

Beləliklə, rəsmi İrəvanın növbəti Qərblə əməkdaşlıq oyunu əslində Cənubi Qafqazda geosiyasi gərginliyi yeni konfrontasiya müstəvisinə keçirmək niyyəti ilə bağlıdır. Burada başlıca məqsəd münaqişənin qeyri-müəyyən vəziyyətdə qalmasına davam etməkdir. Məhz buna görədir ki, erməni analitiklər və onlara quyruq bulayan rusiyalı bir sıra ekspertlər mürəkkəb və ziddiyyətli bir vəziyyətin yarandığı görüntüsü formalaşdırmağa çalışırlar. Onlar müəyyən təbliğat kampaniyası aparırlar. Lakin erməni siyasilərin anlamadığı bir incə məqam mövcuddur.

Rusiya o qədər böyük və güzəştsiz davranan dövlətdir ki, özündən asılı olanların səhvini bağışlamır. Rəsmi İrəvanın Qərb oyunu müəyyən həddə çatanda Kremlin yumruğu mütləq Ermənistan rəhbərliyinin başını partladacaq. Təcrübə göstərir ki, bu, çox müxtəlif formalarda ola bilər. Ermənistan ölkə olaraq cəzalandırıla bilər. Onun siyasi lideri qəzanın qurbanı olar. Küçələrdə etiraz dalğası başlayar. Rusiyadakı erməni oliqarxlar və mədəniyyət xadimlərinin müraciəti meydana çıxa bilər. Və yaxud 1999-cu ildə olduğu kimi parlamentdə güllə səsləri eşidilər. Hansı üsulun seçilməsindən asılı olmayaraq məqsəd bir olacaq - Ermənistanı mövcud olduğu geosiyasi buxovda saxlamaq! Erməni azad ola bilməz!

**Newtimes.az**

# Vüqar Rəhimzadə: “Dövlət müstəqil medianın inkişafında maraqlıdır və bunun üçün lazım olan bütün addımları atır”



***“Hər zaman müasir dövrün qlobal çağırışlarını əsas tutan Azərbaycan bu gün demokratik inkişaf yolunda əmin addımlarla irəliləyir. Ölkəmizdə insan hüquq və azadlıqları, o cümlədən söz, fikir və mətbuat azadlığı ən yüksək səviyyədə təmin edilir. Bütün vətəndaşlar rahat şəkildə öz fikirlərini ifadə edə bilir, kütləvi informasiya vasitələri isə müstəqil şəkildə fəaliyyət göstərirlər. Təbii ki, bütün bunların əsasında dövlətin bu sahəyə olan diqqət və qayğısı, azad medianın inkişafı üçün yaratdığı münbit şərait durur. Bu gün ölkəmizdə qeydiyyatdan keçən və fəaliyyət göstərən çoxlu sayda kütləvi informasiya vasitəsinin mövcudluğu bir daha söz və mətbuat azadlığının beynəlxalq standartlar səviyyəsində təmin olunduğunu nümayiş etdirir.” Bu fikirləri SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.***

Vüqar Rəhimzadə qeyd edib ki, Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev həyatın bütün sahələri kimi, mətbuatın inkişafını da xüsusi diqqət mərkəzində saxlayır: “Dövlətimizin başçısı cənab İlham Əliyev KİV-in inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə hər zaman həssas yanaşır. Elə ötən gün möhtərəm Prezidentimizin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1 milyon manatın ayrılması dediklərimizin əyani sübutudur. Bu fakt bir daha onu göstərir ki, dövlət müstəqil medianın inkişafında maraqlıdır və bunun üçün lazım olan bütün addımları atır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, cənab Prezidentimizin təşəbbüsü ilə Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımının ayrılması artıq sistemli xarakter alıb. Öz növbəmizdə bizə göstərilən maddi və mənəvi dəstəyə, diqqət və qayğıya görə möhtərəm Prezidentimizə dərin təşəkkürümüzü bildiririk”.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, dövlətin KİV-ə dəstəyi təkcə bidəfəlik yardımlarla yekunlaşmır: “Bu gün Azərbaycan jurnalistlərə təmənnasız olaraq mənzillərin verilməsi dünyada bir ilkdir. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə Bakının Bibiheybət qəsəbəsində 2013-cü ildə 156 mənzilli, 2017-ci ildə isə 255 mənzilli yaşayış binalarının açılış mərasimlərinin keçirilməsi və 400-dən çox jurnalist ailəsinə böyük sevincin bəxş edilməsi hər birimizin yaddaşındadır. “Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür.” Jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində çıxış edən dövlətimizin başçısının səsləndirdiyi bu fikirlər Onun həqiqətən jurnalistlərin dostu olduğunu və bu sahəyə isti, xoş münasibətini, diqqət və qayğısını göstərdi”.

Mətbuat Şurası İdarə Heyətinin üzvü əlavə edib ki, mətbuata göstərilən bu diqqət və qayğı jurnalistlərin də üzərinə böyük məsuliyyət qoyur: “Biz unutmamalıyıq ki, jurnalist olmaqdan əvvəl bu ölkənin vətəndaşıyıq, bu Vətənin övladıyıq. Milli və dövlətçilik maraqları bizim üçün hər şeydən öndə olmalıdır. Möhtərəm Prezidentimizin “...Milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır” fikirləri biz jurnalistlər üçün fəliyyətimizin bütün dövrlərinin mühüm təzisi olmalıdır. Yalnız bu halda dövlətimizin inkişafına, milli maraqlarımızın daha etibarlı şəkildə qorunmasına öz töhfəmizi vermiş olarıq”.

# Dövlətçilik əleyhinə çıxış edən media qurumlarına qarşı hansı mexanizmlər var?

***“İnternet, sosial media açıq şəbəkə olduğu üçün bir çox məsələlərdə onlardan istifadə imkanları daha genişdir. Az bacarığı olanlar belə sosial şəbəkələrdən, bloqlar yaratmaq, müxtəlif sosial media resurslarından istifadə etməklə istədikləri məlumatı yaya və ya çağırışlar edə bilərlər. Amma bu o demək deyil ki, bunun qarşısını almaq mümkünsüzdür. Azərbaycanda artıq bu sahədə müəyyən təcrübə də var”. Bu fikirləri SİA-ya açıqlamasında “Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.***

## “Azərbaycanda aidiyyatı qurumlar qanuna zidd informasiyaları müəyyən edə bilirlər”

O bildirib ki, Azərbaycanda sosial mediada, internetdə yayılan qanuna zidd informasiyaların müəyyən olunması ilə əlaqədar məhkəmə çəkişmələri də olub: “Yeni aidiyyatı qurumlar bunu monitorinqlər, müxtəlif axtarış tədbirləri aparmaqla qanuna ziddi olan informasiyaları müəyyənləşdirə bilirlər. Bu, təbii ki, peşəkarlıq, hüquq-mühafizə orqanlarının əməkdaşlığını tələb edir. Oflayn mediaya baxanda burada kifayət qədər mürəkkəblik olsa belə, mümkünsüz heç nə yoxdur".



Ölkəmizdə istər yerli, istərsə də xaricdən idarə olunan dövlətçilik əleyhinə çıxış edən media qurumlarına qarşı mexanizmlərin hazırlandığını deyən mərkəz direktoru söyləyib ki, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanun layihəsinə edilən dəyişikliklərlə hansı hallarda internet resursların bloklana biləcəyi müəyyənləşib: “Xaricdən idarə olunan internet resurslarına Azərbaycan ərazisində fəaliyyətinə məhdudiyyət qoymaq mümkündür. Əgər hansısa resurs yerləşdiyi ölkənin dəstəyi ilə Azərbaycana qarşı məqsədyönlü şəkildə fəaliyyət göstərirsə, o zaman bunun qarşısını diplomatik yolla almaq mümkündür. İnternet resursların fəaliyyət göstərdiyi ölkələr orada Azərbaycana qarşı saytların yarandığından xəbərsiz də ola bilər. Lakin bununla bağlı Azərbaycan qanunvericiliyi var və əgər tələblər pozulubsa, o zaman hüquq mühafizə orqanları Azərbaycan ərazisində bu cür resursların müəyyən edilməsi və yayılmasının qarşısını ala bilər”.

O.Gündüz qeyd edib ki, dünya təcrübəsində də dövlətçilik əleyhinə çağırış edən internet resurslarına qarşı cəza növləri var: “Belə ki, bunlara xəbərdarlıq, müvəqqəti məhdudlaşdırma, tamamilə bloklanma və digərləri daxildir. Dünyada da internetdə fəaliyyət göstərmək üçün domen, hosting alınmalıdır. Lakin domen və hosting verən qurumların özünün şərtlərinə görə, onlardan istifadə edənlər terrorçuluqla məşğul ola bilməzlər. İstənilən şəxsin əldə etdiyi domen dünyanın istənilən ölkəsində yerləşən kompüterin hostingində yerləşə bilər. Hostingi verən şirkətlərin də öz tələbləri var. O şərtlər pozulduqda həmin şirkətlər də hosting sahiblərini bloklaya bilərlər. Təcrübə göstərir ki, ölkələrdən həmin şirkətlərə müraciət olunanda onlar dərhal bu istiqamətdə ölçü götürürlər”.

***Nailə Məhərrəmova***

## Hikmət Babaoğlu: Azərbaycan Prezidenti milli mətbuatımızın böyük dostu, qayğıkeşi və hamisidir



Azərbaycan mətbuatının problemləri və qayğıları daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Mediamızın bugünkü inkişafı, ölkəmizdə söz və mətbuat azadlığının təmin edilməsi, jurnalistlərin peşə nüfuzunun artırılması, onların məişət problemlərinin həlli, evlə təmin olunması, çap məhsullarının əlavə dəyər vergisindən azad edilməsi və s. kimi mühüm məsələlər məhz Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. H.Babaoğlu qeyd edib ki, son illərdə idxal edilən qəzet kağızının bizdən asılı olmayan səbəblərdən bahalaşması çap mediası üçün müəyyən çətinliklər yaratmaqdadır. Belə məqamda Azərbaycan Prezidentinin Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu vasitəsilə mətbuatımıza birdəfəlik yardım ayırması olduqca böyük hadisədir və mümkün problemləri əvvəlcədən həll etmək baxımından olduqca əhəmiyyətlidir.

Deputat deyib ki, dövlətimizin başçısı informasiya təhlükəsizliyi məsələlərinə çox böyük önəm verir və onu milli təhlükəsizliyimizin əsas komponentlərindən biri kimi qiymətləndirir. Bu, milli mətbuatımıza verilən çox böyük qiymətdir. Doğrudan da postmodernist cəmiyyətlər əsas etibarilə informasiya cəmiyyəti kimi xarakterizə olunur və informasiya belə cəmiyyətlərdə əsas institutlardan biri kimi çıxış edir. Azərbaycanda da demokratik və açıq cəmiyyət mövcud olduğu üçün informasiya resurslarının keyfiyyəti, əslində elə ictimai şüurun keyfiyyətini müəyyənləşdirir ki, bu da çox vacib bir məsələdir. İctimai şüur milli maraqların və dövlətçilik maraqlarının qorunması baxımından başlıca intellektual faktorlardan biridir. Ona görə də ölkəmizin informasiya məkanının təhlükəsizliyinin qorunması milli mətbuatımızın fəaliyyəti ilə birbaşa bağlıdır. Bütün bunlar isə mediamızın inkişafını zəruri edir. Hikmət Babaoğlu bildirib ki, Prezident İlham Əliyevin artıq ənənə halını alan bu cür birdəfəlik yardımları mətbuatımızın inkişafına böyük töhfədir: “Biz media mənsubları bunu çox yüksək qiymətləndirməliyik. Bu, bir daha onu göstərir ki, Azərbaycan Prezidenti milli mətbuatımızın böyük dostu, qayğıkeşi və hamisidir”.

## Rasim Musabəyov: “Qanun çərçivəsində onların cavabları verilməlidir”



“Azərbaycan Prezidenti İlham Əliyev Gəncə hadisələri ilə bağlı hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirilən iclasda haqlı olaraq bildirdi ki, Azərbaycana qarşı yalan, iftira üzərində qurulmuş kampaniyaların heç bir səmərəsi olmayacaq”. Bunu SİA-ya açıqlamasında millət vəkili, politoloq Rasim Musabəyov deyib.

“Hətta mən deyərdim ki, burada söhbət tək kampaniyalardan da getmir. Burada konkret olaraq Azərbaycan dövlətçiliyinə qarşı qəsddən söhbət gedir. Polisə hücumun təşkil olunması belə qəbuledilməz bir haldır. Radikal və terrora meyilli qruplar Azərbaycan polisini qətlə yetirdilər. Əgər kimlərsə onlara xaricdən, daxildən və media, sosial şəbəkələr vasitəsilə dəstək verirlərsə, düşünürəm ki, çox yanlış bir addım atırlar. Hesab edirəm ki, qanun çərçivəsində onların da cavabları verilməlidir. Xarici mediada verilən yanlış və yaramaz hansısa fikirlərə isə dərhal cavab verilir”- deyə, politoloq fikrini tamamlayıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirilən iclasda bildirmişdi ki, müxtəlif xarici mərkəzlərdən idarə olunan medianın Azərbaycana qarşı apardığı qaralama kampaniyasının heç bir səmərəsi yoxdur.

# Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti daha da genişlənir

*Dövlət başçısının Fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılacaq*

***Dünyaya səpələnmiş azərbaycanlıların birliyi və həmrəyliyi istiqamətində dövlət tərəfindən görülən işlərin məntiqi nəticəsi olaraq, bu gün Azərbaycan diasporu daha yüksək tarixi inkişaf mərhələsini yaşayır. Azərbaycan dövlətinin ilbəil artan iqtisadi və siyasi qüdrəti dünya azərbaycanlıları arasında birlik və həmrəyliyin daha da möhkəmlənməsinə, diaspor hərəkatının güclənməsinə əlverişli şərait yaradıb. Dünya azərbaycanlılarının mənəvi birliyinə və həmrəyliyinə xidmət edən ümummilli ideyaları, milli-mənəvi dəyərləri sistemləşdirmək, onların ölkə vətəndaşları və xaricdə yaşayan soydaşlarımız arasında yayılmasını təmin etmək dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bunun nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 6 iyul tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılacaq.***



Məlumdur ki, ölkədə lobbiçilik fəaliyyətinin əsas istiqamət və perspektivlərini dünya azərbaycanlılarının müstəqil Azərbaycan dövləti və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayan Ulu Öndər Azərbaycan diaspor cəmiyyətlərinin problemlərinə və qayğılarına hər zaman böyük həssaslıqla yanaşmışdır. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, ölkə həyatının bütün sahələrində olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Belə ki, Ümummilli Lider bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, həmvətənlərimizi yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı. Müstəqillik dövründə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcı qoyulmuş, azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilmişdir. Qazanılmış nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına zəmin yaratmışdır. Xaricdə yaşayan həmvətənlərimiz bu gün Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb edilmiş, onların Azərbaycan iqtisadiyyatına investisiya qoyması və ölkə ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün əlverişli şərait yaradılmışdır.

Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlamış, tarixi Vətənlə əlaqələrini itirməmişlər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması, məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də, Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılacaq Azərbaycan Diasporuna Dəstək Fondu ölkəmizdə həyata keçirilən islahatların və əldə olunmuş nailiyyətlərin dünyaya bəyan edilməsinə, ölkənin mənafelərinin müdafiəsinə, milli-mənəvi dəyərləri dünya azərbaycanlılarının qorumasına, daha da inkişaf etdirilməsinə və tanıtmasına töhfələrini vermiş olacaq. Eyni zamanda, Fond milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə, lobbiçilik fəaliyyətinin güclənməsinə, sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərinin həllinə, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə, Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və mütəşəkkilliyinin möhkəmlənməsinə dövlət dəstəyi göstərəcək. Bu və ya digər məsələlərə dəstək olacaq fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək kimi məqsədləri təmin edəcəkdir. Fondun Nizamnaməsində, qeyd olunduğu kimi, öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərəcək. Ölkəmizdə həyata keçirilən müstəqil, hüquqi, dünyəvi dövlət və demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xaricdə yaşayan azərbaycanlıları, habelə, Azərbaycana dost münasibəti bəsləyən digər xalqların diasporlarını məlumatlandırmaq, bu barədə informasiyani televiziya, radio, dövri mətbuat və digər vasitələrlə yaymaq kimi vəzifələri həyata keçmirməyi qarşıya qoyulub. Xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına, mütəşəkkilliyinin möhkəmlənməsinə, azərbaycanlıların lobbiçilik fəaliyyətinin güclənməsinə və Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişlənməsinə maddi yardım göstərmək də əsas məsələ kimi yer alıb. Xaricdə yaşayan azərbaycanlıları ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb etmək, onların Azərbaycan iqtisadiyyatına investisiya qoymalarını və ölkə ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarını təmin etmək məqsədilə təbliğat-təşviqat işlərinin aparılmasına maddi yardım göstərmək, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi və marketinq fəaliyyətinin dəstəklənməsi ilə bağlı aidiyyəti dövlət orqanlarına, qeyri-hökumət təşkilatlarına, fiziki və hüquqi şəxslərə dəstək göstərmək və s. fondun vəzifə və hüquqları sırasında yer alıb.

Fond tərəfindən xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının təhsil müəssisələrində təhsil almalarına, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmalarına maddi yardım da göstəriləcək.

Azərbaycan Diasporuna Dəstək Fondu dünya ictimaiyyətinə respublikamız haqqında tam obyektiv, dolğun informasiya verilməsində, ölkəmizin beynəlxalq aləmdə təbliği və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynayaraq, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə daha geniş imkanlar yaradacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Yaponiya və Avropa İttifaqı arasında azad ticarət barədə müqavilə imzalanıb

İyulun 17-də Tokioda Yaponiya və Avropa İttifaqı arasında azad ticarət barədə müqavilə imzalanıb. Bu, dünya ÜDM-nin 30 faizini təşkil edən nəhəng iqtisadi blokun yaranmasına səbəb olacaq.

AZƏRTAC xəbər verir ki, müqavilənin imzalanması mərasimi Baş nazir Şinzo Abenin iqamətgahında, Avropa Şurasının sədri Donald Tuskun və Avropa Komissiyasının başçısı Jan Klod Yunkerin iştirakı ilə keçirilən sammitdən sonra baş tutub. İmzalanan sənədə əsasən, Yaponiya Aİ-dən idxal edilən əmtəələrin, o cümlədən qida məhsullarının 94 faizinə rüsumları ləğv edəcək ki, bu da ölkə bazarına Avropadan gətirilən pendirin, şərabın və donuz ətinin qiymətlərini aşağı salacaq. Avropa ölkələri də öz növbələrində, Yaponiyadan idxal edilən məhsullara, əsasən avtomobillərə və məişət elektronikasına gömrük rüsumlarını ləğv edəcək. Lakin bu, müqavilənin qüvvəyə minməsindən səkkiz və ya altı il sonra baş tutacaq. Müqavilənin gələn ilin martında, Böyük Britaniya Aİ-ni tərk etdikdən sonra ratifikasiya ediləcəyi gözlənilir.

## Səfir: Qəzvin-Rəşt-Astara dəmir yolu istifadəyə verildikdən sonra İran-Azərbaycan ticarət dövriyyəsi 2 milyard dollara çatacaq



Qəzvin-Rəşt-Astara dəmir yolu xəttinin istifadəyə verilməsindən sonra İran ilə Azərbaycan arasındakı ticarət dövriyyəsinin həcmi 2 milyard dollara çatacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə Rəşt şəhərində iş adamları ilə keçirdiyi görüşdə deyib. Səfir bildirib ki, hazırda iki ölkə arasında ticarət mübadiləsinin miqdarı gömrüklər vasitəsilə 500 milyon, neft ixracatı üzrə 350 milyon, turizm sektorunda isə 400 milyon dollara çatıb.

Diplomat nəzərə çatdırıb ki, hər iki ölkənin prezidenti siyasi iradə nümayiş etdirərək bütün sahələr üzrə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədilə səmərəli fəaliyyət göstərirlər. Məhz prezidentlərin fəaliyyətlərinin nəticəsidir ki, İran Astarası ilə Azərbaycan Astarası arasında dəmir yolu xətti çəkilərək istifadəyə verilib. Hazırda bu yol vasitəsilə İran Azərbaycan üzərindən idxal və ixrac əməliyyatlarını həyata keçirir. Gələcəkdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Rəşt-Astar yolu da çəkiləcək və İran ilə Azərbaycanın ticarət dövriyyəsi artacaq. Bununla yanaşı Azərbaycan tranzit rolunu oynayaraq İran mallarının Rusiya və Avropa dövlətlərinə daşınmasında əhəmiyyətli rol oynayacaq. İranlı diplomatın sözlərinə görə dəmir yolunun istifadəyə verilməsi Azərbaycan ilə sərhəddə yerləşən Gilan vilayətinin iqtisadiyyatı və əhalisinin sosial vəziyyəti yaxşılaşacaq.

## "Azərbaycan Hava Yolları" növbəti dəfə nüfuzlu "Skytrax" mükafatına layiq görülüb




Aviaşirkətlərin və hava limanlarının xidmət səviyyəsinin qlobal qiymətləndirilməsi sahəsində Böyük Britaniyanın aparıcı konsaltinq şirkəti "Skytrax" Azərbaycanın milli aviadaşıyıcısının "4 Ulduzlu aviaşirkət" reytinqini növbəti dəfə təsdiq edib.

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu, "Azərbaycan Hava Yolları"nın (AZAL) xidmət keyfiyyətinə görə qlobal aviasiya bazarının tanınmış liderləri ilə bir sırada qiymətləndirilməsinin göstəricisidir. Bundan əlavə, AZAL aviaşirkəti "Mərkəzi Asiya və Hindistan üzrə ən yaxşı regional aviaşirkət" nominasiyasının qalibi olub. Azərbaycanın milli aviadaşıyıcısı "Skytrax" tərəfindən ilk dəfə belə yüksək ada layiq görülüb. Ən yaxşı aviaşirkətlərin mükafatlandırılması mərasimi 2018-ci ilin iyulun 17-də Londonda "World Airline Awards" rəsmi tədbirində keçirilib.

## FAO-nun beynəlxalq məsləhətçisi: Azərbaycan pomidoru brend məhsuludur



Azərbaycan pomidoru brend məhsuludur və əsasən keçmiş SSRİ ölkələrində çox yaxşı tanınır. AZƏRTAC xəbər verir ki, bunu BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) beynəlxalq məsləhətçisi Olqa Lavrentyeva iyulun 17-də "Azərbaycanda fitosanitar nəzarətin və diaqnostik xidmətlərin gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən fitosanitar inspektorlar üçün pomidor ixracının sertifikatlaşdırılması üzrə seminarda deyib.

Qida Təhlükəsizliyi Agentliyinin Fitosanitar Nəzarəti şöbəsinin müdiri Xəyalə Dadaşova ölkəmizdə yetişdirilən pomidor məhsullarının çox keyfiyyətli olduğunu bildirib. Həmçinin qeyd olunub ki, bununla yanaşı, onun ixracı sahəsində fitosanitar tələblərin və orqanik məhsulların yetişdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilməlidir.

# Xalq dövlətin yanındadır

## *Gəncədə, daha sonra Sumqayıtda radikal dini cərəyanların zərərsizləşdirilməsi müsbət haldır*

***Məlum olduğu kimi, iyulun 15-də Sumqayıt şəhərində hüquq- mühafizə orqanları tərəfindən 18 dini radikal qruplaşmanın nümayəndəsi həbs edilib. Bu məsələdə yüksək fəallıq göstərən vətəndaşlar hüquq-mühafizə orqanlarına yardım etməklə, pozucu qrup üzvlərinin zərərsizləşdirilməsində yaxından iştirak ediblər. Bütün bunlar, onu göstərir ki, artıq vətəndaşların terrora qarşı mübarizədə hüquq-mühafizə orqanları ilə eyni mövqedən çıxış edirlər, həm də baş verənlərə qarşı biganə deyillər. Söhbət etdiyimiz müsahiblərimiz möhkəm əsaslara malik xalq-hakimiyyət birliyinin istənilən məkrli qüvvələrin pozucu niyyətlərinin qarşısını almağa qadir olduğunu bildirdilər.***

### İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov: "Azərbaycanı Suriyaya çevirmək istəyən qüvvələr mövcuddur"



- Azərbaycan dövlətinin güclü olması xaricdə olan bəzi qüvvələri çox narahat edir. Demək olar ki, bu gün Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşan qüvvələr var. Ümumiyyətlə, ətrafdan gələ biləcək təhdidlərə qarşı Azərbaycan dövləti öz immunitetini formalaşdırıb. Son narahatedici məqamlardan biri də bu ayrı-ayrı dini qrupların Azərbaycan dövlətinə qarşı apardığı siyasət və bəzi qonşu dövlətlərin bu prosesdə aktiv iştirak etməsidir. Ancaq Azərbaycan dövləti və xalqı olaraq, bu proseslərdən narahat olmağımıza ehtiyac yoxdur. Birinci növbədə, bizim oturuşmuş güclü dövlətimiz var və özünü müdafiə etmək bacarığına sahib hüquq-mühafizə orqanlarımız mövcuddur. Artıq biz ötən əsrin 90-cı illərində yaşamırıq, yeni ordumuz və dövlətimiz yeni-yeni qurulmur. Bu gün tam oturuşmuş bir sistem var və hüquq- mühafizə orqanları da kiminlə necə mübarizə aparacağını çox yaxşı bilir. Digər tərəfdən isə, demək olar ki, Azərbaycanı Suriyaya çevirmək istəyən qüvvələr mövcuddur. Bu baxımdan, birinci növbədə, dövlət bununla ciddi mübarizə aparmalıdır. İkinci növbədə, biz xalq olaraq, vətəndaşlar olaraq dövlətimizə bu məsələdə ciddi dəstəyimizi verməliyik. Son Gəncə və Sumqayıt hadisələrində də gördük ki, xalq dövlətin yanındadır. Dövlət öz üzərinə düşən vəzifə və öhdəliklərini yerinə yetirmək gücündədir. Ona görə də, həm dövlət, həm də xalq olaraq, bu proseslərin öhdəsindən gəlmək qüdrətində də və bacarığındayıq. Bir sözlə, Azərbaycanı Suriyaya, Liviyaya çevirmək istəyən qüvvələrin arzusu ürəyində qalacaq. Bu dövləti müdafiə etmək və gələcək nəsillərə sağlam, sakit və əmin-aman bir dövlət kimi ötürmək üçün xalq dövlətin yanında olmalıdır, necə ki, var.

### Politoloq Elşən Manafov: "Bunun arxasında geopolitik maraqların olması istisna edilmir"

- Gəncə hadisələri terror aktıdır. Çünki icra hakimiyyətinin başçısı Azərbaycan Prezidentini təmsil edir. Bu, dövlətçiliyə qarşı baş vermiş cinayət hadisəsidir. Əgər hadisəni həyata keçirən şəxslər başqa ölkələrin xüsusi xidmət orqanları ilə bağlıdırsa, bu, yalnız terror hadisəsi deyil, həm casusluq, həm də ölkəni parçalamağa cəhddir. Eyni zamanda, bunu Cənubi Qafqazda öz mövqelərini gücləndirən və beynəlxalq aləmdə nüfuz sahibi olan dövlətə qarşı müəyyən dairələrin həyata keçirtmək istədiyi terror hadisəsi kimi qiymətləndirmək lazımdır. Bunun arxasında geopolitik maraqların olması istisna edilmir. Çünki Azərbaycan bu gün təkcə Cənubi Qafqazda deyil, həm də dünyada nüfuz sahibi olan dövlətdir. Böyük dövlətlərin Azərbaycana etimadı var. Danışıqlar məkanı kimi də Bakının seçilməsi Azərbaycan dövlətinə, onun rəhbərinə böyük güclərin etimadı kimi dəyərləndirilməlidir. Ancaq Azərbaycandakı sabitlik və inkişaf bəzi qüvvələrin marağında deyil. Ona görə də, sabitliyi pozmaq, iqtidara qarşı iğtişaşlar yaratmaq müəyyən dairələrin marağına xidmət edir. Bu mənada, Azərbaycanda insan haqlarının pozulmasını qabardıb, daxili işlərinə müdaxilə etmək istəyən qüvvələr var. Bütün hallarda bu səpkidə hadisələrin Azərbaycanda baş verməsi üçün sosial baza yoxdur. Azərbaycan hakimiyyətinin sosial bazasına isə aprel ayında keçirilmiş prezident seçkiləri bir daha aydınlıq gətirdi. Seçkilərin tamamilə demokratik şəraitdə keçməsi göstərdi ki, Azərbaycanda demokratik-hüquqi dövlət quruluşu var. Seçkilər xalqın Azərbaycan Prezidentinə yüksək etimadını sübut etdi.



**GÜLYANƏ**

## Sərhədçilər Alıxanlı kənd sakininin həyatını xilas ediblər



Dövlət Sərhəd Xidmətinin hərbi hissələri və bölmələri tərəfindən sərhədyanı ərazilərdə yaşayan əhaliyə hər zaman mümkün köməklik göstərilmiş, müxtəlif problemlərin həllində dəstək verilmişdir.

15 iyul tarixində Füzuli rayonu sakininin həyatını sərhədçilərin köməkliyi ilə xilas etmək mümkün olmuşdur. Belə ki, həmin tarixdə Füzuli rayonunun Alıxanlı kənd sakini 1935-ci il təvəllüdlü Məmmədova Elminaz Rza qızını öz həyətində ilan sancmış və o, təcili olaraq rayon xəstəxanasına gətirilmişdir. E.Məmmədovanın həyatını xilas etmək üçün ona təcili ilan zərdabının vurulması zərurəti ilə əlaqədar Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Horadiz sərhəd dəstəsinə müraciət olunmuşdur. Müraciətə dərhal reaksiya verilmiş, şəxsi heyətin ilan sancması hallarında istifadə etmək məqsədilə hərbi hissənin tibb məntəqəsində saxlanılan ilan zərdabı rayon xəstəxanasına çatdırılmış və vətəndaşın həyatı xilas edilmişdir.

## Xəzər dənizini çirkləndirənlər cərimələniblər

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ətraf Mühitin Mühafizəsi Departamentinin və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının atılması, qalaqlanması, çirkab suların dənizə axıdılması hallarının qarşısının alınması məqsədilə birgə reyd keçiriblər. ETSN-in mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, reyd zamanı Xaçmaz rayonunun Müqtədir-Nabran zonasında fəaliyyət göstərən istirahət mərkəzlərində, ictimai-iaşə obyektlərində formalaşan məişət tullantılarının və çirkab suların qanunvericiliyə uyğun qaydada idarə olunmadığı müəyyən edilib.

İstirahət mərkəzlərinin bəzilərində əmələ gələn məişət tullantılarının ərazidə qalaqlanması, bir qismində isə məişət-çirkab sularının təmizlənmədən birbaşa Xəzər dənizinə axıdılması faktları aşkarlanıb. Faktlarla bağlı qanun pozucuları barəsində protokol tərtib olunub və onlar İnzibati Xətalar Məcəlləsinə əsasən, ümumilikdə 9400 manat məbləğində cərimələniblər. Nöqsanların aradan qaldırılması məqsədilə obyekt sahiblərinə icrası məcburi olan müddətli "məcburi göstəriş"lər verilib. Reydlər davam etdirilir.

## Elman Nəsirov: Siyasi qətlin diaqnozu-terror!

***Azərbaycan Prezidenti İlham Əliyev 3 iyul və 10 iyul tarixlərində Gəncədə törədilmiş mütəşəkkil cinayət əməllərini məhz terror aktları kimi qiymətləndirib, hədəfində dövlətçiliyimizin dayandığını vurğulayıb. Heç şübhəsiz, Prezidentin Gəncə iğtişaşına və onun nəticələrinə verdiyi obyektiv qiymət terror fenomeni ilə bağlı elmi mülahizə və müzakirələrin aktuallığını daha da artırıb.***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov AZƏRTAC-a açıqlamasında terror cinayəti ilə bağlı fikirlərini bölüşüb.

Deputat deyib: "Bir qrup ekspert hesab edir ki, terrorçular qətllər törətdiyinə, adamları girov götürdüyünə, təyyarələri qaçırdığına və digər qanunazidd əməllərə imza atdıqlarına görə onları daxili və beynəlxalq hüquq prinsiplərinə əsasən adi cinayətkar hesab etmək və haqlarında həbs qətimkan tədbiri seçmək olar. Digər qrup ekspert isə terrorizmi hərbi əməliyyat, müharibənin bir forması kimi dəyərləndirir və ya onunla milli azadlıq hərəkatı arasında bərabərlik işarəsi qoyur. Şübhəsiz ki, terror aktı prosesi adi cinayət əməli ilə də müşayiət oluna bilər. Eyni zamanda, cinayətkar elementlər terror taktikasından da istifadə edə bilərlər. Burada bir nüansı nəzərdən qaçırmaq olmaz. Cinayətkarlıq şəxsi maraqların təminatına xidmət edir. Bu halda terror taktiki vasitə kimi ikinci dərəcəli rol oynayır və əsas məqsədin reallaşmasına - zənginləşməyə, varlanmağa xidmət edir. Terrorçular isə, hər şeydən əvvəl, siyasi məqsədlərinə çatmaq üçün, məsələn, bu və ya digər təşkilata mənsub olan məhbusların azad olunmasında, bu və ya digər məsələdə mövqelərini dəyişmək üçün hakimiyyətə təzyiq göstərilməsində və s. zorakılıqdan istifadə edirlər. Onu da qeyd edək ki, adi cinayətkarlardan fərqli olaraq, terrorçular əksər hallarda cinayətlərini gizlətmir və törətdikləri qanunazidd əməllərə görə məsuliyyəti öz üzərlərinə götürərək daha geniş ictimai rezonansa nail olurlar.

Eyni fikirləri terrorizm ilə müharibə və ya terrorçuluq ilə milli azadlıq hərəkatı arasında bərabərlik işarəsi qoyulması ilə bağlı cəhdlər haqqında da söyləmək olar. Onları birləşdirən ümumi cəhət hər birinin siyasi zorakılığın müxtəlif formaları olmasıdır. Ayıran fərqli cəhət isə ondadır ki, istənilən hərbi münaqişədə tərəflərin mübarizəsi, hər şeydən əvvəl, mülki əhaliyə qarşı deyil, hərbi birləşmələrə qarşı aparılır. Terrorçular üçün isə əsas hədəf məhz mülki əhalidir.

Milli azadlıq hərəkatına gəldikdə, qeyd olunmalıdır ki, o, əhali tərəfindən daha geniş müdafiəsi və kütlələrin bu mübarizədə yaxından iştirakı ilə xarakterizə olunur. Terrorçular isə kütlədən kənarda fəaliyyət göstərir, onların törətdikləri qanlı terror aktları əhali tərəfindən müdafiə olunmur. İstisna olunmur ki, müharibə və ya milli azadlıq mübarizəsi gedişində terror aktları da törədilə bilər, lakin bu halda o yeridilən strategiyanın əsas həlqəsi deyil, müşayiətedici elementi qismində çıxış edəcək.



Göründüyü kimi, terrorçuluq zahiri əlamətləri və təzahür formaları baxımından çox mürəkkəb fenomen olmaqla bir çox xüsusiyyətləri baxımından adi cinayətkarlığa da, müharibənin və ya milli azadlıq mübarizəsinin xüsusi formasına da bənzəyir. Lakin bu oxşarlıq zahiri və vizual məzmun daşıyır.

Terrorçuluğun mahiyyəti ilə bağlı araşdırmalar onun aşağıdakı özünəməxsus xüsusiyyətlərini göstərməyə imkan verir: Birincisi, praktiki olaraq bütün mütəxəssislər hesab edirlər ki, terrorçuluq, hər şeydən əvvəl, mütəşəkkil zorakılığın formalarından biridir. İkincisi, terrorçuluq gücün siyasi məqsədlərlə istifadəsidir, başqa sözlə, o, siyasi zorakılığın spesifik formasıdır. Üçüncüsü, terror aktları daha geniş ictimai rezonans üçün hesablanır. Nə qədər paradoksal görünsə də, bu, bir həqiqətdir ki, terror aktında əsas məqsəd konkret şəxsə və ya topluma fiziki ziyan vurmaq deyil, cəmiyyətdə qorxu və xaos aşılamaqla planlarının realizə olunması üçün maksimum əlverişli şəraiti təmin etməkdən ibarətdir.

Beləliklə, terror aktında üç müxtəlif tərəf iştirak edir: Birincisi, terror aktını törədən tərəfdir. İkincisi, bu aktın qurbanı və ya qurbanlarıdır. Üçüncüsü isə, qorxudulan və ya sonrakı davranışı zorla müəyyənləşdirən tərəfdir. Yuxarıdakı məntiqə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, terror aktında birinci tərəfin hədəfi, əslində, üçüncü tərəfdir. Yeri gəlmişkən, sadalanan üç tərəfin konfliktdə iştirakı terrorçuluğu cinayətkarlığın digər formalarından fərqləndirən mühüm cəhətlərdən biridir. Terrorçuluğun beynəlxalq aləmə məlum olan əsas xüsusiyyətlərinin yuxarıdakı təqdimatı bir daha təsdiqləyir ki, Gəncə şəhərində məhz terror aktları törədilib.

Sonda onu da xüsusi olaraq vurğulayaq ki, müasir terrorçuluğun əsas xüsusiyyəti onun heyrət doğura biləcək səviyyədə yeni şəraitə uyğunlaşma və mutasiya qabiliyyətinə malik olmasıdır. Mahiyyəti etibarilə o, virus tipli və deməli, epidemiya xarakteri xəstəlikdir. Onun nə zaman və haradan zərbə endirəcəyi məchuldur. Deməli, qlobal təhdid və çağırışlardan ən təhlükəlisi qarşısında - terrorçuluqla mübarizədə vahid orqanizm - sivil dünyanın immuniteti gücləndirilməlidir. Terrorçuluğa qarşı mübarizədə qlobal birlik nümayiş olunmalıdır. Deməli, eyni məntiqlə də Gəncədə törədilmiş terror aktlarına münasibətdə beynəlxalq ictimaiyyətin susqun deyil, obyektiv və yekdil mövqeyi ortaya qoyulmalıdır. Azərbaycan ictimaiyyətinin belə bir ədalətli mövqeyi gözləməyə haqqı var".

# Gəncə hadisələri - təfərrüatlar və reallıqlar

*Güclü və qüdrətli Azərbaycan dövləti, bu dövləti göz bəbəyi kimi sevən, qoruyan xalq faktoru heç vaxt bənzər hadisələrin təkrarlanmasına imkan verməyəcək!*

**Bəlli olduğu kimi, Gəncə hadisələrinin baş verməsi arxasında üzə çıxan faktlardan biri də həmin hadisələrin daxili və xarici təxribatçı qüvvələrin törətməsidir. Belə ki, ölkənin ikinci ən böyük şəhərinin icra hakimiyyəti başçısına qarşı törədilən sui-qəsd, eləcə də, iki polis zabitinin vəhşicəsinə qətli Azərbaycanda sabitliyi pozmağa, vətəndaş itaətsizliyinə və dövlət quruluşuna qarşı terror aksiyası kimi qiymətləndirildi.**



Bu hadisələr fonunda xalqın dövlətinin yanında dayanması, dövlətin maraqlarını müdafiə etməsi nəticə etibarilə bəlli qüvvələrin ifşa olunmaları və hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq, istintaqa cəlb edilmələri ilə nəticəsini tapmış oldu. İstər Yunus Səfərovun zamanında həbs edilməsi, istərsə də digər cinayətkarların qısa müddətdə saxlanılmaları, ilk növbədə, hüquq-mühafizə orqanlarının operativ fəaliyyətləri nəticəsində baş verdi. O cümlədən, digər qatilin - Rəşad Böyükkişiyevin yeri müəyyənləşdirildikdən sonra saxlanılması istiqamətində aparılmış əməliyyat zamanı silahlı müqavimət göstərməsi və məhv edilməsi də Azərbaycan polisinin qətiyyətli və peşəkar fəaliyyətini növbəti dəfə təsdiqləmiş oldu.

## Faktlar təsdiq edir ki, cinayət qabaqcadan planlaşdırılmış aksiya olub və bilavasitə xaricdən idarə edilib

Qeyd edək ki, artıq Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin məlumatında iyulun 10-da Gəncə şəhərində törədilən qanlı cinayətin bütün iştirakçılarının müəyyənləşdirildiyi, 11 nəfərin həbs olunduğu da bəllidir. İstintaq-axtarış əməliyyatı zamanı müəyyən olunub ki, hadisədən bir gün əvvəl R.Böyükkişiyev bütün ailə üzvlərini Gürcüstana çıxarıb. Həmçinin, cinayət törətməkdə şübhəli bilinən Bəkram Əliyev isə iyulun 9-da Rusiyadan Gəncəyə gəlib. Bu faktlar təsdiq edir ki, cinayət qabaqcadan planlaşdırılmış aksiya olub və bilavasitə xaricdən idarə edilib. Əldə edilən bəzi faktlar cinayət iştirakçılarının bir qisminin həm də Ermənistan xüsusi xidmət orqanları əməkdaşlıq edən dini-ekstremist təşkilatla sıx bağlı olduğunu deməyə ciddi əsaslar yaradıb.

Beləliklə, fakt budur ki, ölkədə radikal islamçılara, onların nəzarətində olan və xaricdən gələn təlimatlar əsasında dövlətin hüquqi əsaslarına qarşı sistemli çağırışlar edən, cəmiyyətdə dini, milli ayrı-seçkilik toxumu səpməyə çalışan saytlar, eləcə də, sosial şəbəkə qrupları, bilavasitə Azərbaycana qarşı düşmənçilik mövqeyi sərgiləyən tərəflərdən sifarişlər alıb, onları reallaşdırmağa çalışıblar. Lakin onların hər biri qısa zamanda qanun qarşısında cavab verməli olacaqlar.

## Heç bir mənfur düşmən ayaq açıb, öz çirkin niyyətini gerçəkləşdirə bilməyəcək

İctimai rəy də belə düşünür ki, Gəncə hadisələrinin təkrarlanmaması üçün xalq-dövlət birliyi daha da möhkəmlənməli, vətəndaşlar ayıq-sayıq olmalı, hər hansı bir təhlükə hiss olunarsa, müvafiq güc strukturlarına yardım etməlidir. Məhz belə olan halda, heç bir mənfur düşmən ayaq açıb, öz çirkin niyyətini gerçəkləşdirə bilməyəcək.

Onu da qeyd edək ki, artıq kimin kim olduğu açıq-aşkar məlum olub. Daha dəqiq desək, Y.Səfərovu az qala qəhrəman elan edənlər, iğtişaşlar törədib vətəndaş itaətsizliyini təbliğ edənlər, qanuni hakimiyyəti devirərək, xaos yaratmağa çalışanlar Avropada qondarma "siyasi dissidentlər" adı altında erməni lobbisinə nökərçilik edənlərdirlər.

## Gəncə hadisələri ətrafında bleflər edib, xalqı, ictimai rəyi sərsəm versiyaları ilə çaşdırmağa çalışırlar

Onların qara məqsədləri alınmadıqdan sonra AXCP təmsilçisi, eləcə də, "Azadlıq" qəzetinin baş redaktoru, həmçinin, "Azərbaycan saatı" adlı separatçı verliş aparıcısı Qənimət Zahid, "qiyamçı səfir" ləqəbi ilə tanınan dövlət düşməni Arif Məmmədov, birbaşa erməni xislətinə məxsus olan Orduxan Bəbirov, o cümlədən, Qurban Məmmədov, Tural Sadıqlı kimi ünsürlər daha da azğınlaşaraq, hətta quduzlaşaraq daxillərindəki vəhşiliklərini daha qabarıq şəkildə sərgiləməyə başladılar. Görünür, bu baxımdan, Gəncə hadisələri ətrafında bleflər edib, xalqı, ictimai rəyi sərsəm versiyaları ilə çaşdırmağa çalışırlar. Ancaq onların bu mənfur niyyətləri də istədikləri nəticələri vermir. Hətta ölkə daxilində onlardan fərqlənməyən bəzi qruplar da var ki, onlar hələ də vəziyyəti mürəkkəbləşdirməyə cəhdlər göstərirlər. Söz yox ki, qısa zamanda, belələri də ifşa olunaraq, qanun və xalq qarşısında cavab verməli olacaqlar. Buna isə kimsənin şübhəsi olmamalıdır. Güclü və qüdrətli Azərbaycan dövləti, bu dövləti göz bəbəyi kimi sevən, qoruyan xalq faktoru heç vaxt bənzər hadisələrin təkrarlanmasına imkan verməyəcək. Dövlətimizin düşmənləri bu reallığı qulaqlarından sırğa edib, asmalıdırlar!

**Rövşən RƏSULOV**

---

**Son günlər baş verən hadisələrdən müxalifətin dağıdıcı ünsürləri öz çirkin siyasi məqsədləri üçün istifadə etməyə cəhdlər göstərirlər. Xüsusilə də, sosial şəbəkələrdə dağıdıcı müxalifətin tör-töküntüləri olan bəzi şəxslər insanları kütləvi itaətsizliyə, işlədikləri idarə və müəssisə rəhbərlərinə qarşı terror aktları törətməyə çağırışlar edirlər. Lakin bu dağıdıcı tör-töküntülər bilməlidirlər ki, həyata keçirilən tədbirlər nəticəsində respublikada sabitlik və təhlükəsizlik etibarlı qorunur və bu xalq heç vaxt imkan verməz ki, müstəqilliyimizə çirkli əllər uzansın. Söhbət etdiyimiz müsahiblərimiz də bildirdilər ki, xalq-iqtidar birliyinin nəticəsidir ki, pozucu qüvvələrin çirkin niyyətləri ürəklərində qalır.**

# Xalq pozucu qüvvələrə meydan verməyəcək

*Bu xalq heç vaxt imkan verməz ki, müstəqilliyimizə çirkli əllər uzansın*

## Kamil Mirzəyev, YAP Biləsuvar rayon təşkilatının sədri:



"Son bir həftə ərzində Gəncədə baş verən hadisələr onu göstərir ki, müstəqilliyimizi, dövlətimizin inkişafını gözü götürməyən qüvvələr öz çirkin niyyətlərini terror yolu ilə Gəncədə həyata keçirmək üçün sabitliyi və asayişi pozmağa cəhd ediblər. Amma onlar unudurlar ki, Azərbaycan qüdrətli dövlətdir və onun möhkəm iradəli, uzaqgörən, dünya siyasətçilərinin həsəd apardığı yüksək intellektli Prezidenti var. Eyni zamanda, ölkəmizdə möhkəm iqtidar-xalq birliyi var. Bu xalq heç vaxt imkan verməz ki, müstəqilliyimizə çirkli əllər uzansın". Bunu "Səs" qəzetinə açıqlamasında YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev bildirib.

K.Mirzəyev onu da vurğulayıb ki, hüquq-mühafizə orqanları qısa müddətdə həmin təxribatçıların hamısını ifşa edib layiqli cəzalarını verəcək: "Dövlət başçımız hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda demişdir: "Xalq-iqtidar birliyi Azərbaycandakı sabitliyin əsas şərtidir. Xalq-iqtidar birliyinə nə xarici, nə də hər hansı daxili qüvvə təsir edə bilər. Azərbaycanın müasir tarixi bunu sübut edir. Kim bizə qarşı çirkin niyyətlərlə hərəkət edirsə, bu niyyətlərinin qurbanı olur. Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilib".

K.Mirzəyev bildirdi ki, həqiqətən də, Azərbaycan dövlətinin arxasında onun bütün siyasətini qeyd-şərtsiz dəstəkləyən xalq durur və xalq həmin pozucu qüvvələrə bunu reallaşdırmağa imkan verməyəcək.

## Seyfəddin Əliyev, YAP Masallı rayon təşkilatının sədri

"Azərbaycanda suyu bulandırma cəhdlərinin perspektivi yoxdur, çünki Azərbaycan özünü müdafiə etməyə qadir qüdrətli dövlət olmaqla yanaşı, onun vətəndaşı da yüksək siyasi mədəniyyətə malik olduğundan, heç zaman yad qüvvələrin yedəyində getməyib. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidir ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər". Bu fikirləri YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirərək vurğulayıb ki, Azərbaycanın sosial-iqtisadi inkişafı, apardığı müstəqil siyasət respublikamızı sevməyən qüvvələri narahat edir: "Ancaq bu qüvvələr heç vaxt istəklərinə nail ola bilməyəcəklər. Çünki dövlətimizin sükanı etibarlı əllərdədir, respublikamızda möhkəm xalq-iqtidar birliyi mövcuddur. Dövlətimizin başçısının apardığı daxili və xarici siyasət xalq tərəfindən dəstəklənir. Bu siyasət bizi daim irəliyə doğru aparır. Azərbaycan Silahlı Qüvvələri, o cümlədən polis orqanları dövlətimizin, xalqımızın və müstəqilliyimizin keşiyində ayıq-sayıq dayanıb".



S.Əliyev, onu da vurğulayıb ki, bu gün Azərbaycan, sözün əsl mənasında, bir təhlükəsizlik və sabitlik adasıdır: "Dünyada xaosun və anarxiyanın himayədarları ölkəmizdəki sabitliyi və təhlükəsizliyi pozmaq istiqamətində zaman-zaman cılız addımlar atıblar. Lakin hər dəfə də belə addımlar elə başlanğıcından fiaskoya uğrayıb. Çünki Azərbaycanda xalq-iqtidar birliyi həmişə öz sarsılmazlığını göstərib. Ölkəmizdəki sabitlik və təhlükəsizlik mühiti isə ən qiymətli sərvətimizdir və Azərbaycan bu əsaslar üzərində öz inkişafını davam etdirir, milli maraqlarını əzmlə müdafiə edir, dövlətçiliyini və suverenliyini gücləndirir. Baş verənlərin təşkilatçılarına, ölkədə sabitliyi pozmaq, insanları qorxu altında saxlamaq istəyənlərə yüksək cəza verilməlidir".

**Rəfiqə KAMALQIZI**

---

## "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu yenidən qurulur

Prezident İlham Əliyev "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncam "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunun müasir standartlara uyğunlaşdırılması və sözügedən abidənin ərazisində müasir turizm infrastrukturunun yaradılması məqsədilə imzalanıb. Sərəncama əsasən, 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə 1,2 milyon manat vəsait ayrılıb.

---

## Neft Fondu bu vaxtadək qaçqın və məcburi köçkünlərlə bağlı tədbirlərə 2,1 milyard manat ayırıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari il iyulun 1-dək qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 2 milyard 187,2 milyon manat ayırıb.

AZƏRTAC ARDNF-ə istinadla xəbər verir ki, bu ilin yanvar-iyun aylarında isə Neft Fondu tərəfindən qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 84,5 milyon manat yönəldilib.



# Ermənistan növbəti siyasi böhrana doğru istiqamət alıb

## *Erməni politoloqları Paşinyanın reytinqini itirəcəyi proqnozunu verdilər*

***2019-cu ilin aprel-may aylarında Ermənistanda növbədənkənar parlament seçkilərinin keçiriləcəyi gözlənilir. Lakin ölkədə siyasi böhranın həll edilməməsi, hətta Nikol Paşinyanın parlamentdə yeni seçki kodeksini birinci oxunuşdan qəbul edilməsinə nail olmaması ölkənin siyasi-ictimai dairələrində suallar doğurur. Ermənistanın tanınmış politoloqları və siyasi texnoloqları Paşinyan iqtidarının növbədənkənar parlament seçkilərinə qədər reytinqini itirəcəyini əminliklə vurğulayırlar. O cümlədən, müxalifətin həmin seçkilərdə müəyyən uğurlar əldə edə biləcəyi ətrafında da iddialar səslənir.***

### <u>Politoloq Sari Saroyan:</u> **“Əgər ciddi və ideoloji müxalifət yaradıla bilərsə, yeni reputasiyalı hökumətin nüfuzu təhlükə altında qala bilər”**

“Kim siyasətdə proqressivdirsə, o da uğur qazanır”. Bu fikirləri Ermənistanın







“1in.am” portalına politoloq Sari Saroyan ölkəsində keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələrini proqnozlaşdırarkən deyib. Erməni politoloqunun fikrincə, növbədənkənar parlament seçkilərində müxalifət cinahından çıxış edənlər proqressiv olmasalar, birmənalı olaraq, uduzacaqlar. Baş nazir Paşinyana qarşı hansı siyasi qüvvənin real rəqib ola biləcəyi sualını cavablandıran Saroyan deyib: “Hansı qüvvələr ki, idarəetmə sistemində mövqe sahibi olmaq istəyirlərsə, hər hansı platformaları ilə öz şanslarını qiymətləndirməyi bacarmalıdırlar”.

Erməni politoloquna görə, hələlik, seçkilərdə iştirak edəcək hansı siyasi qüvvələrin konkret formatı barədə nə isə demək çətindir. Bununla yanaşı, Saroyan qeyd edib: “Əgər ciddi və ideoloji müxalifət yaradıla bilərsə, yeni reputasiyalı hökumətin nüfuzu təhlükə altında qala bilər”.

Görünən budur ki, Saroyan müxalifətin seçkilərə ciddi və inamlı gedəcəyi halda, qalibiyyət əldə edəcəyini istisna etməyib. Bu isə, ölkədə yeni siyasi qarşıdurmaların yaranması ilə də nəticələnə bilər. Çünki Nikol Paşinyan bütün hallarda yenicə əldə etdiyi hakimiyyətini kimsəyə təhvil vermək fikrindən uzaq olduğunu bu və ya digər şəkildə nümayiş etdirir.

### <u>Siyasi texnoloq Armen Badalyan:</u> **“Kim deyir ki, hazırkı hakimiyyətin nüfuzu yüksəkdir?”**

Digər erməni siyasi texnoloqu Armen Badalyana görə isə, digər siyasi qüvvələr mövcud iqtidarın reytinqi cəhətindən sıxışdırılmayacaq. “Ona görə ki, hazırkı hökumət yalnız taktiki problemləri həll edir, halbuki ortada ciddi proqram fəaliyyəti yoxdur”-deyə Badalyan bildirib. Onun sözlərinə görə, Paşinyan iqtidarının daha ciddi proqramı olmalıdır, eləcə də, müxalifətin proqramları ciddiliyə əsaslanmalıdır ki, onlar növbədənkənar parlament seçkilərində uğur əldə edə bilsinlər. “ Proqramlar isə bütün sahələri əhatə etməlidir”-erməni siyasi texnoloqu deyib.

Maraqlıdır ki, Armen Badalyan Paşinyan iqtidarının yüksək reytinqə malik olması barədə fikirləri qəbul etmir. “Növbədənkənar parlament seçkilərində digər siyasi güclər iqtidarın mövcud reytinqi qarşısında problemlər yaşaya bilərmi?” sualını cavablandıran Badalyan deyib: “Xeyr, problem yaşamayacaqlar. Kim deyir ki, hazırkı hakimiyyətin nüfuzu yüksəkdir? Kütlədə belə bir geniş fikir formalaşıb ki, mövcud iqtidar əla reputasiyaya malikdir və s. Birincisi, “əla reputasiya” dedikdə, biz nə başa düşdüyümüzü anlamalıyıq. Bu suala isə sosioloqlar cavab verə bilərlər, lakin bizim Ermənistanın sosioloqlarına inamımız itib. Ümumilikdə isə, biz reytin hesablaması ilə danışa bilərik ki, bu da 50%+1 ola bilər, artıq yox. Bu, çox müəmmalıdır”.

### <u>İddia:</u> **“Əgər digər qüvvələr sıxışdırılmayacaqlarsa, onlar savadlı kampaniya aparmağa nail olacaqlarsa, hazırkı iqtidara qalib də gələ bilərlər”**

Erməni siyasi texnoloqu xatırladıb ki, növbədənkənar parlament seçkiləri qarşıdan gələn bazar günü deyil, gələn ilin aprel-may aylarında keçiriləcək. Belə ki, texniki olaraq, həmin zamana qədər seçkiləri keçirmək mümkün deyil: “Artıq, yayın ortalarıdır, avqustda isə məzuniyyət mövsümüdür. Ötən müddətdə isə seçki kodeksi qəbul edilmədi, hətta birinci oxunuşda belə. Çox yəqin ki, kodeks sentyabrda qəbul ediləcək, ikinci oxunuş isə payızda baş tutacaq. Yəni seçki kodeksi ilin sonuna kimi hazır olacaq, ondan sonra isə seçkilərin keçirilməsinə 6 ay lazımdır”.

Badalyan Paşinyan iqtidarının hazırkı məqamda əldə etdiyi reytinqinin gələn ilin aprel-may aylarında olmayacağı qənaətində olduğunu bildirib. O, iddia edib: “Əgər digər qüvvələr sıxışdırılmayacaqlarsa, onlar savadlı kampaniya aparmağa nail olacaqlarsa, hazırkı iqtidara qalib də gələ bilərlər”.

Beləliklə, fakt budur ki, Ermənistanda gələn ilin aprel-may aylarında keçiriləcək növbədənkənar parlament seçkiləri ətrafında müəyyən fikirlər üst-üstə düşür. Daha dəqiq desək, erməni politoloqları Paşinyan hakimiyyətinin həmin zamana qədər reytinqini itirəcəyini proqnozlaşdırırlar. Bu isə, Ermənistanda növbəti siyasi böhranın mövcud siyasi böhrana qarışacağı ehtimalını artırır.

***Rövşən RƏSULOV***

# Protez-Ortopedik Bərpa Mərkəzi 23 nəfər əlilliyi olan şəxsə əlil arabaları verib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Biləsuvar və Cəlilabad rayonlarında yaşayan və əlil arabasına tibbi göstərişi olan 23 nəfər əlilliyi olan şəxsə əlil arabaları verilib.***

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əlilliyi olan şəxslərdən bir qisminin rayon mərkəzlərinə gələ bilmədikləri nəzərə alınaraq arabalar yaşadıqları ünvanlarda onlara təhvil verilib. Əlilliyi olan şəxslər, onların ailə üzvləri ölkəmizdə fiziki məhdudiyyətli vətəndaşların maddi təminatlarının gücləndirilməsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası, həmçinin reabilitasiya vasitələri ilə təmin edilmələri



sahəsində aparılan işlərə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Əlil arabasına ehtiyac duyduğu halda əlilliyi olan şəxsin Protez-Ortopedik Bərpa Mərkəzinə birbaşa müraciətinə ehtiyac yoxdur. Bununla bağlı onun müraciəti yaşadığı ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasında dərhal qeydə alınır və əlil arabasına ehtiyacı olması barədə tibbi göstəriş ƏƏSMN-in elektron sisteminə daxil edilir. Bundan sonra isə Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən əlilliyi olan şəxs növbəlilik qaydasında əlil arabası ilə təmin olunur.

## İlin əvvəlindən Avropaya keçən miqrantların sayı 50 min nəfəri ötüb



Bu ilin əvvəlindən bəri Aralıq dənizi ilə Avropaya keçən miqrant və qaçqınların sayı 50 min nəfəri ötüb. Habelə 1440 miqrant ölüb və ya itkin düşüb. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat yayıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, təşkilatın rəsmi nümayəndəsi Coel Millman Cenevrədə keçirilən brifinqdə Avropaya gələn miqrant və qaçqınların təxminən 35 faizinin İtaliya və İspaniya, 29 faizinin Yunanıstan tərəfindən qəbul edildiyini bildirib. Xatırladıb ki, keçən ilin müvafiq dövründə Aralıq dənizi ilə Avropaya 110 min miqrant, 2016-cı ildə isə 242 min miqrant keçib. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, ilin əvvəlindən 2186 miqrant və qaçqın həlak olub. Bununla belə Aralıq dənizi Avropaya miqrasiyada ən təhlükəli marşrut olaraq qalır.

## "Qafqaz əsiri" filminin "Yoldaş Saaxov"u xəstəxanaya yerləşdirilib



Rusiyanın Vaxtanqov adına teatrının qocaman aktyoru, SSRİ Xalq Artisti, "Qafqaz əsiri" və "İvan Vasilyeviç peşəsini dəyişir" filmlərinin ulduzu, 96 yaşlı Vladimir Etuş xəstəxanaya yerləşdirilib. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, bu barədə aktyorun həyat yoldaşı Yelena Etuş bildirib. O qeyd edib ki, aktyorun səhhəti yaxşılaşmağa doğrudur, ancaq həkimlər xəstəxanadan çıxması haqda hələ bir söz deməyiblər.

Teatrın direktoru Kirill Krok bildirib ki, məşhur aktyor xaricdə istirahətdə olarkən səhhəti qəfil pisləşib və o, Moskvaya gətirilərək xəstəxanalardan birinə yerləşdirilib. Vladimir Etuş 1945-ci ildən Vaxtanqov adına teatrda işləyir. Kino fəaliyyətinə isə 1953-cü ildə Mixail Rommun "Admiral Uşakov" tarixi filmində çəkilməklə başlayıb. O, 40-dan çox filmə çəkilib. Azərbaycanlı tamaşaçı onu daha çox "Qafqaz əsiri və ya Şurikin yeni macəraları" filmindəki Yoldaş Saaxov obrazından tanıyır.

## Sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi üçün yeni rüsumlar



Sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi üçün dövlət rüsumu artırılıb. SİA-nın məlumatına görə, bu barədə məsələ "Dövlət rüsumu haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb. Dəyişikliyə əsasən 18.65.5.1-ci maddədə "18" rəqəmi "25" rəqəmi ilə əvəz edilib. Bununla da sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi 18 manatdan 25 manata qaldırılıb. Qeydiyyat şəhadətnaməsinin verilməsi (18.65.7-ci maddə) üçün isə dövlət rüsumu hazırkı 17 manatdan 25 manata qaldırılıb. Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov bildirib ki, rüsumla bağlı qanuna edilən dəyişikliklər artıq rəsmi olaraq dərc edilib və bu gündən etibarən qüvvəyə minir.



## Antimilli təhlükə mənbəyi

RƏFİQƏ

***Elə zənn etməyin ki, bu adı təsadüfən seçmişəm. Səbəbi bu adın altında 25 ilə yaxındır ki, Azərbaycan xalqının gözünü döyənək edən o qədər zəhlətökən fərdlər dayanıb ki... Onlardan biri də, söz yox ki, AXCP sədri Əli Kərimlidir. Görünür, biz sonrakı dövrlərdə də onun haqqında hələ çox yazacağıq. Nə qədər ki, özü siyasi səhnədən və xalqın qarşısından üzüsulu getməyəcəyinə qədər. Çünki bu fərd, bilavasitə bir cəhənnəm şeytanıdır ki, yapışıb millətin ətəyindən əl çəkmir. Yaxşı deyiblər ki, adamda abır-həya yaxşı şeydir. Ancaq abır-həyanın olması üçün insanda gərək bir balaca vicdan da olsun. Həmin vicdan isə bu gün hakimiyyətə gəlməkdən ötrü bütün çirkin əməllərə əl atmağa hazır olan Ə.Kərimlidə, əsla, yoxdur!***

### Varlığı bundan o yana inkişaf etməyən Əli Kərimli

Bu, o oğru Əli Kərimlidir ki, özünün "lider" olması üçün öz ağsaqqalının (Əbülfəz Elçibəyin -R.) həyatına sui-qəsd düzənləyərək, onu zəhərlədəndən hansı vicdanı gözləyəsən??!! Öz lideri xəstə ikən, ona Türkiyədən göndərilmiş 100 min dollarlıq maddi köməyi Kələkdən Bakıya oğru əlaltıları ilə qaçıran, həmin pulların vasitəsilə xəyanətkar "Yurd" qruplaşmasını Elçibəyə qarşı istiqamətləndirən şərəfsizdən hansı əqidni tələb edəsən??!! Varlığı bundan o yana inkişaf etməyən Əli Kərimli antimilli təhlükə mənbəyi olmaqla yanaşı, ən böyük parazitdir desək, daha düzgün olar. Bu, o Ə.Kərimlidir ki, heç bir yerdə işləmədiyi halda, ildə 80 min dolları (!!!-R.) gül balasının təhsil haqqı üçün Londona göndərirdi. Arvadına Parisdə, Londonda brend parfüm malları satan dükanlar açıb. Sonra da durub deyir ki, ondan "təmiz", ondan "saf", ondan "gül" kimi adam yoxdur. Bu rəzil fərd Azərbaycan hakimiyyətinin, Azərbaycan dövlətçiliyinin üzərinə qara yaxmağa cəhd edərkən, unutmamalıdır ki, onun bu xalq qarşısındakı xəyanətləri unudulmayıb. Bu gün isə yaxşı olardı ki, Ə.Kərimli və onu müdafiə edən binəvalar sürüsü onun həmin xəyanətlərini etiraf etsinlər. Əks halda qanunamüvafiq qaydada onun özü Azərbaycan xalqının qarşısında cavab verməli olacaq. Gec, ya tez, bu, baş verəcək.

# "AzerTelecom" və "STEP Kompüter Akademiyası" arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC ilə STEP Kompüter Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.***

"AzerTelecom" və STEP Kompüter Akademiyası arasında memorandumun imzalanması informasiya və kommunikasiya texnologiyaları sahəsində təhsilin davamlı inkişafı, İKT sahəsində maarifləndirici proqramların icrası, elm, təhsillə bağlı müxtəlif layihələrə dəstəyin verilməsi vəbu sahənin geniş ictimaiyyət arasında birgə tanıtımıüçün əhəmiyyətli şərait yaradır.

Əməkdaşlıq memorandumu "AzerTelecom" MMC-nin baş icraçı direktoru Fuad Allahverdiyev və STEP Kompüter Akademiyasının direktoru Aleksey Sleptsov arasında imzalanıb və bir sıra mühüm istiqamətlər üzrə əməkdaşlığın həyata keçirilməsini nə




zərdə tutur. "Memorandum qarşımızda yüksək texnologiyalar sahəsində təhsilin inkişafı, Akademiyanın şagird və tələbələrinin nəzəri və təcrübi biliklərinin artırılması üçün geniş imkanlar yaradır. "AzerTelecom" şirkəti cəmiyyətimizin davamlı inkişafını hədəfləyən, elm və təhsil yönümlü müxtəlif layihələri daim dəstəkləyir. STEP Kompüter Akademiyası ilə gələcək faydalı əməkdaşlığımız çərçivəsində birgə həyata keçirəcəyimiz yeni maarifləndirici layihələrin ümumi inkişafa töhfə verəcəyinə inanırıq" - deyə şirkətin baş icraçı direktoru Fuad Allahverdiyev qeyd edib. Öz növbəsində STEP Kompüter Akademiyasının direktoru Aleksey Sleptsov bildirib ki, memorandum çərçivəsində birgə əməkdaşlıq gənclərin inkişafı üçün yeni imkanlar açacaq və İKT sahəsində təhsilin irəli aparılmasına şərait yaradacaq.

STEP Kompüter Akademiyası barədə:

STEP Kompüter Akademiyası 1999-cu ildən fəaliyyət göstərir və kompüter təhsili üzrə ixtisaslaşmış beynəlxalq təhsil müəssisəsidir. Akademiya Azərbaycan da daxil olmaqla dünyanın 16 ölkəsində fəaliyyət göstərir və ümumilikdə 30 min tələbə və 85 min məzuna sahibdir.

"AzerTelecom"MMC barədə:

"AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi demokratik prosesin tərkib hissəsi kimi

***İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən geniş demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir. Çünki vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik-hüquqi dövlət quruculuğu, bilavasitə olaraq insan hüquq və azadlıqlarının möhkəm təminatlarının yaradılması problemi ilə bağlıdır.***

Real həyatda hüquq və azadlıqların səmərəli şəkildə həyata keçirilməsi üçün onların təmin edilməsinə dair hər cür pozuntulara və dövlətdaxili təsirlərə davamlı olan və təsirli təminatlar mexanizmi zərurisinin konstitusion təminatları; hüquqi yardım almaq hüququ, qanunsuz yolla əldə edilmiş sübut və dəlillərin qeyri-qanuniliyi; hökmün yenidən baxılması hüququ; cinayətdən zərər çəkənlərin hüquqları; qanun əks-qüvvəsinin qadağan edilməsi.

Bir sıra mütəxəssislər isə O.U.Kutafin və Y.İ.Kozlovanın nöqteyi-nəzərini daha düzgün hesab edirlər. Belə ki, adları qeyd olunan bu müəlliflərin fikrincə, insanın və vətəndaşın hüquq və azadlıqların real həyata keçirilməsi bir çox şərtlər, o cümlədən hüquqdan kənar çərçivədə olan şərtlər tələb edir. Ona görə də, təminatlar sosial-iqtisadi, siyasi və hüquqi təminatlara bölünməlidir.

Hüquq və azadlıqların təminatlarının belə təsnifatı bizim nöqteyi nəzərimizə daha çox yaxın olmaqla, tədqiqat predmeti baxımından siyasi təminatlar xüsusi maraq doğurur. Belə ki, Azərbaycanda hüquqi-demokratik dövlətin və vətəndaş cəmiyyətinin formalaşdığı bir şəraitdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi problemlərinin həlli mexanizmləri arasında siyasi-hüquqi təminatlar xüsusi rol oynayır.

İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi, onların tam həcmdə həyata keçirilməsi dövlət qarşısında müəyyən vəzifələr qoyur. Azərbaycan Respublikasının Kostitusiyası insan və vətəndaş hüquqları və azadlıqlarını bəyan edərək, həm də müəyyən edir ki, onların tanınması və riayət olunması dövlətin borcudur. Bu hüquq və azadlıqların müdafiəsi və təmin olunması üçün zəruri olan əsas "mexanizmlər" də müəyyən olunmuşdur. Ölkədə insan hüquqları və azadlıqlarının müdafiəsi və təmin olunmasına görə məsuliyyət üzərinə qoyulan təsisatlar sırasına dövlət hakimiyyətinin hər üç qolu aid edilir. Belə ki, artıq qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən, insan hüquqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Göründüyü kimi, konstitusiyada mütərəqqi amillərdən biri kimi təsbit olunmuş hakimiyyətlərin bölgüsü prinsipinə əsasən, hakimiyyətin hər üç qolu öz fəaliyyətlərində insan və vətəndaş hüquqları və azadlıqlarını hər bir halda qorumalı, bu onların ümdə vəzifələrindən biri və əsası olmalıdır. Ona görə ki, insan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir və bu hüquqlar hər hansı bir normativ-hüquqi aktla və ya vəzifəli şəxs tərəfindən ləğv edilə, yaxud məhdudlaşdırıla bilməz. Bu baxımdan, ilk növbədə, Azərbaycanda qanunvericilik hakimiyyətini həyata keçiran orqan kimi Milli Məclis ölkə Konstitusiyasının insan hüquqları və azadlıqlarına dair müddəalarını qəbul etdiyi qanunlarda əks etdirir və onların həyata keçirilməsini təmin etmək üçün mexanizmlər müəyyənləşdirir.

Onu da qeyd etmək lazımdır ki, 1993-cü il siyasi dönəmindən sonra Milli Məclisin bu sahədəki fəaliyyəti daha səmərəli olmaqla xeyli fəallaşmışdır. Belə ki, 1993-cü ilin ortalarından indiyədək Azərbaycan parlamenti tərəfindən bu sahədə 20-dən çox qanun, ölkəmizin 30-dan artıq beynəlxalq Konvensiyalara qoşulması barədə qanunlar qəbul etmişdir. Onlardan "ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" (19 may 1998-ci il), "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" (30 oktyabr 1998-ci ii), "Sərbəst toplaşmaq azadlığı haqqında" (13 noyabr 1988-ci il), "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında" (11 iyun 1999-cu il), "Kütləvi informasiya vasitələri haqqında" (7 dekabr 1999-cu il), "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" (13 iyun 2003-cü il), "Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili haqqında" (28 dekabr 2001-ci il) və bir sıra digər Azərbaycan Respublikası Qanunlarını göstərmək olar.

Azərbaycanda insan-vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi siyasətinin bir istiqamətini bu sahədə həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğunlaşdırılması təşkil edir. Qeyd etdiyimiz kimi, Azərbaycan indiyədək 30-dan çox müvafiq beynəlxalq Konvensiyalara qoşulmuşdur. Azərbaycan Respublikası hələ suveren xalqlar ailəsinə daxil olan anda Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında (maddə 19) insan hüquqları sahəsində ən nüfuzlu beynəlxalq sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etmişdir.

Bu prosesin məntiqi davamı kimi 24 avqust 2002-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu tənzim etdiyi məsələlərin dairəsinə görə çox mühüm əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi haqqında" Konvensiyaya uyğunlaşdırmaq məqsədi daşıyır.

Konstitusiya Qanunu hər kəsin onun hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermək hüququnu və məhkəmələrin insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı konstitusiyanın və qanunların şərh edilməsi haqqında Konstitusiya Məhkəməsinə müraciət edə bilmək hüquqlarını təsbit etmiş və bununla da, qeyd olunan Konvensiyanın tələblərinə uyğun tərtib olunmaqla insanların hüquq və azadlıqlarının qorunması, məhkəmənin nüfuzunun və ədalət mühakiməsinin qərəzsizliyinin təmin edilməsi üçün real hüquqi baza yaratmışdır.

Bütövlükdə, dövlət hakimiyyətinin üç qolu Azərbaycanda insan hüquqları və azadlıqlarının dövlətdaxili müdafiəsi və təmin edilməsi mexanizmlərinin əsasını təşkil edir və insan hüquqlarının reallaşmasının təmin edilməsi metodları, prosedura və vasitələrini müəyyən edirlər. Bu dövlətdaxili milli mexanizmlər sırasında xüsusi olaraq, bizim fikrimizcə, ölkə Prezidenti tərəfindən insan və vətəndaş hüquqları və azadlıqlarının konstitusion təminatçısı kimi müdafiəsini ayırmaq olar. Məhz bununla əlaqədar Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyev 1998-ci il oktyabrın 18-də özünün andiçmə mərasimindəki nitqində qeyd etmişdir: "Prezident kimi mənim üçün hər bir Azərbaycan vətəndaşının hüququnun qorunması vacibdir... Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin. İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir. Ümumiyyətlə, bütün mərhələlərdə Heydər Əliyevin rəhbərliyinin mahiyyətini təşkil edən dəyərlər sırasında insan hüquq və azadlıqlarının qorunması, humanizm və ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi, məhz bu prinsiplərə xidmət edir.

O, respublikamızda demokratik, hüquqi dövlət quruculuğu prosesini insan hüquqlarının təmin edilməsi kontekstində səciyyələndirərək göstərirdi ki, "...Biz demokratiya yolu seçmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizm hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır". Şübhəsiz ki, bütün bunlar da ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətində nəzərdə tutulan tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının sabiq Prezidenti Heydər Əliyev tərəfindən bir sıra mühüm əhəmiyyətə malik fərman və sərəncamlar imzalanmışdır. Bu baxımdan, qeyd etmək lazımdır ki, ölkəmizdə insan hüquqlarının qorunması və təmin edilməsi siyasətinin həyata keçirilməsinə, bu sahədə milli mexanizmlərin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanı əhəmiyyətli yer tutur. Həmin Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşər dəyərlərin üstünlüyünü qəbul edərək, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunun özünün inkişaf yolunu seçmişdir.

Ölkə Prezidentinin həmin Fərmanında 80-ci illərin axırlarında 90-cı illərin əvvəllərində Azərbaycanda insan hüquqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmış hallara və faktlara siyasi qiymət verilir. Burada insan hüquqlarının, qadınların, uşaqların, milli azadlıqların müdafiəsinə dair dövlət proqramlarının layihələrinin işlənib-hazırlanması; qaçqınların və məcburi köçkünlərin, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi; insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının, habelə insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılması; hüquqi islahatların həyata keçirilməsi əlaqədar normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi; insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi; insan hüquqları üzrə elmi-tədqiqat institutunun yaradılması və digər məsələlərə dair elmi-tədqiqat institutunun yaradılması və digər məsələlərə dair təkliflərin hazırlanması və lazımı tədbirlərin görülməsi müvafiq dövlət strukturlarına tapşırılmışdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 18 iyul


## "Skype"da danışıqları yadda saxlamaq mümkün olacaq



"Skype" videomessencerinin növbəti yenilənməsində səsli və videozənglərin yazılması funksiyası əlçatan olacaq. Bundan əvvəl danışığın səs yazısını əldə etmək istəyən istifadəçilər kənar, əsasən pullu xidmətlərdən (məsələn, "Avaer") istifadə etmək məcburiyyətində idilər.

AZƏRTAC "hitech.vesti.ru" saytına istinadən bildirir ki, həmsöhbətlərdən biri danışığı yadda saxlamaq istədikdə digər həmsöhbətə bu haqda bildiriş göndəriləcək. Səs yazıları "bulud" saxlama sistemində saxlanıldığına görə onları istənilən qurğudan ("Windows", "Mac", "iOS", "Android" və hətta "Linux") dinləmək mümkün olacaq. "Skype" proqramının yeni versiyası cari ayın sonuna kimi təqdim olunacaq. Cari ilin yazında "Microsoft" korporasiyası "Android" mobil sistemi üçün "Skype" proqramının yüngül versiyasını təqdim edib. Proqram zəif qurğularda daha yaxşı işləyir, görüntü və səs daha yüksək keyfiyyətdə ötürülür.

## Vaşinqtonda saxlanılan rusiyalı qadın casusluqda ittiham olunur



Vaşinqtonda saxlanılan Rusiya vətəndaşı Mariya Butina casusluqda ittiham olunur. İddia edilir ki, M.Butina amerikalı siyasətçilərlə görüşüb və ABŞ-da qərarların qəbul edilməsinə təsir etmək üçün Moskvanın ondan istifadə etdiyi ehtimal edilir. AZƏRTAC xəbər verir ki, bu barədə RİA Novosti agentliyinin məlumatında deyilir. Günahı sübuta yetirildiyi təqdirdə, Mariya Butina qeyd olunan ittiham üzrə 5 il həbs cəzasına məhkum edilə bilər.

## Bakıda dənizdə iki nəfər batıb



Bakı şəhərinin Sabunçu rayonunda dənizdə 2 nəfərin batdığı ehtimal olunur. FHN-dən SİA-ya verilən məlumata görə, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub.

## Cənubi və Şimali Koreya hərbçiləri arasında telefon xətti bərpa olunub



Koreya Respublikası və Koreya Xalq Demokratik Respublikası (KXDR) hərbçiləri arasında qaynar telefon xəttinin fəaliyyəti bərpa olunub. AZƏRTAC Cənubi Koreyanın Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, qaynar xətt iki ölkənin müvafiq qurumları arasında telefon və faks əlaqəsini təmin edəcək.


### ELAN

Kinoloji sahəyə həvəsi olan, həqiqi hərbi xidmət keçmiş, yaşı 27-dək olan Azərbaycan Respublikasının vətəndaşları həqiqi hərbi xidmətə dəvət edilirlər:

Xidmətə qəbul olunmaq istəyən vətəndaşlar Dövlət Sərhəd Xidmətinin Aparatına və ya yaşayış yerinə yaxın olan hərbi hissələrə müraciət edə bilərlər.

**Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**

Ünvan: Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30, Dövlət Sərhəd Xidməti Aparatının inzibati binası.

Əlaqə telefonu: **012 493-62-47**

***

2008-ci ildə Bakı Məktəbəqədər Pedaqoji Texnikumu tərəfindən Hətəmova İlgün Valeh qızının adına verilmiş BB-II, № 075541 saylı diplom itdiyi üçün etibarsız sayılır.


## "Yuventus" bu futbolçuya görə 50 milyon avro tələb edir



"Yuventus"un müdafiəçisi Aleks Sandro karyerasını Fransada davam etdirə bilər. "Football Italia" nəşri yazır ki, PSJ braziliyalını heyətinə qatmaqda qərarlıdı. Paris klubu Aleks Sandroya 40 milyon avro təklif edib. Ancaq "Yuventus" 50 milyon avrodan aşağı qiymətə oyunçu ilə yollarını ayırmağa razı deyil. Qeyd edək ki, Aleks Sandro artıq PSJ ilə müqavilənin şəxsi detallarını razılaşdırıb. Keçid baş tutacağı təqdirdə, o, ilinə 4,5 milyon avro qazanacaq. 27 yaşlı yarımmüdafiəçi hazırda "Yuventus"da 1,7 milyon avro məvacib alır.

## Velosipedçimiz Belçikada çempion oldu



Azərbaycanın şosse velosipedi üzrə Elit yığması və "Baku Cycling Project" kontinental komandasının üzvü Kiril Pozdnyakov Belçikada keçirilən nüfuzlu "Dentergem" turunun qalibi olub. Azərbaycan Velosiped İdmanı Federasiyasının mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, 169,6 km-dən ibarət olan və 110 velosipedçinin iştirak etdiyi birgünlük yarış təmsilçimizin solo-finişi ilə yadda qalıb. Bu ilin iyununda keçirilən Azərbaycan çempionatının qalibi olmuş Kiril Pozdnyakov çempion köynəyi ilə mübarizə apardığı ilk yarışda məsafəni 3 saat, 45 dəqiqə, 30 saniyəyə başa vurub və ən yaxın izləyicisini 11 saniyə qabaqlayıb.

Qeyd edək ki, 1954-cü ildən etibarən təşkil edilən "Dentergem" turu Belçikanın ən nüfuzlu yarışlarından sayılır və müxtəlif illərdə planetin ən güclü velosipedçiləri bu yarışın qalib və mükafatçısı olub.

## Tiyeri Anri üç klubdan təklif alıb



Fransa millisinin və "Arsenal" klubun əfsanəvi oyunçusu Tyerri Anri müstəqil şəkildə məşqçilik karyerasına başladığını elan edib. "Sky Sports" saytı xəbər verir ki, Tyerri Anri üç klubdan təklif alıb. Bu klublar Fransa millisinin keçmiş futbolçusuna baş məşqçi postunu həvalə edə bilərlər. Təkliflərdən biri İngiltərə klubu "Lester Siti"dən gəlib. Digər klublar barədə məlumat verilmir. Anrinin hansı kluba üstünlük verəcəyi də, hələlik məlum deyil. Tyerri Anri ekspert kimi çalışdığı "Sky Sports" telekanalından ayrılıb. Tərəflər arasında 2020-ci ilədək müqavilə bağlanmasına baxmayaraq, Anri müqaviləni birtərəfli qaydada pozmaq qərarına gəlib.

Razılaşmaya əsasən, keçmiş futbolçu qarşıdakı iki ildə 11 milyon avro qazana bilərdi. Rusiyanın ev sahibliyi etdiyi dünya çempionatında Anri Belçika millisinin baş məşqçisi Roberto Martinesin köməkçisi idi. Xatırladaq ki, Belçika millisi yarımfinal mərhələsində Fransa yığmasına məğlub olub (1:0). Mundialda üçüncü yer uğrunda mübarizəsində isə belçikalılar İngiltərə millisinin qapısına iki cavabsız top keçiriblər.

## Ən çox qazanc əldə edən idmançıların adları açıqlanıb

Forbes

"Forbes" jurnalı müxtəlif idman növlərində dünyanın ən çox qazanc əldə edən idmançılarının siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, reytinqdə birinci yer boksçu Floyd Meyvezerə məxsusdur. Onun əsas gəlir mənbəyi qarışıq növlər üzrə döyüşçü Konor Makqreqorla qarşılaşmasından əldə etdiyi vəsait hesab olunur. Meyvezer həmin döyüşə görə 275 milyon dollar qazanıb. "Forbes" jurnalı Leonel Messi və Kriştianu Ronaldunu da ən çox qazanan idmançılar siyahısına daxil edib.

Reytinq cədvəlinin ilk onluğu aşağıdakı kimidir: Floyd Meyvezer - 285 milyon dollar, Corc Kluni - 239 milyon, Kayli Cenner -166.5 milyon, Cudi Şeyndlin - 147 milyon, Dueyn Conson 124 milyon, Lari Malenu - 118 milyon, Lionel Messi - 111 milyon, Ed Şiran - 110 milyon, Kriştianu Ronaldo -108 milyon, Bruno Mars -100 milyon.

## İslandiya millisinin baş məşqçisi istefa verdi



İslandiya millisinin baş məşqçisi Heymir Hadlqrimsson istefa verib. Bu barədə İslandiya Futbol Federasiyasının rəsmi "Tvitter" səhifəsi məlumat yayıb. O, şəxsi istəyi ilə vəzifəsindən ayılmağı xahiş edib. Qeyd edək ki, H.Hadlqrimsson 2011-ci ildən İslandiya millisini çalışdırırdı. Onun komandası DÇ-2018-də qrupda qalmışdı. Xatırladaq ki, "Qarabağ"ın qapıçısı Hannes Tour Haldourson İslandiya yığmasının şərəfini qoruyur.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**